

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

6 mart 2025-ci il, cümə axşamı
№ 041 (6869)
Qiyməti 60 qəpik


# Türkiyə-Azərbaycan dostluq, qardaşlıq tarixində önəmli gün...



Bax səh. 2

## Rəcəb Tayyib Ərdoğan: Strateji və qeyri-adi layihələri həyata keçirməkdə Can Azərbaycan ilə tam uzlaşma içərisindəyik"

## İlham Əliyev: Türkiyə ilə Azərbaycan arasındakı birlik, qardaşlıq bütün Türk dünyasına böyük bir töhfədir









Bax səh. 4-5

# "Bəsirətin Zəfəri"

## Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş tədbir keçirilib

## "Yaşıl tikinti"yə keçid üçün mühüm platforma

Gələn ay Bakıda Azərbaycan Sənaye Təhlükəsizliyi Assosiasiyası və "PMD Projects" MMC-nin birgə təşkilatçılığı ilə İkinci Dayanıqlı Tikinti Zirvəsi tədbiri keçiriləcək. Tədbir ötən il ölkəmizdə keçirilmiş COP29 sammitinə dəstək məqsədilə imzalanmış "Dayanıqlı Yaşıl Tikinti Bəyannaməsi"ndən irəli gələn təşəbbüslərə əsasən təşkil olunacaq. Bir çox ölkələrin tanınmış inşaat, daşınmaz əmlak, tikinti-quraşdırma, təmir, infrastruktur şirkətlərinin rəhbərlərinin iştirak edəcəyi Zirvə toplantısında müasir tikinti meyarları, o cümlədən, şəhər infrastrukturunun yenidən qurulmasında "yaşıl tikinti" alətlərinin tətbiqi yolları və digər innovativ təşəbbüslər müzakirə olunacaq.

"Dayanıqlı Tikinti Zirvəsi" özəl və dövlət müəssisələrinin nümayəndələri, şirkət rəhbərləri və müasir tikinti sahəsində peşəkar mütəxəssislərin, həmçinin inşaat sənayesində çalışan sahibkarların karbon emissiyalarının azaldılması istiqamətində qabaqcıl təcrübələri mənimsəmək və bölüşmək, eyni zamanda inşaat və şəhərsalma sahələrində tətbiq olunan qabaqcıl yanaşmaları tətbiq etmək üçün əlverişli platforma hesab edilə bilər.

Aparılmış təhlillərə əsasən, tikinti sektorunun ətraf mühitə böyük təsirləri var, bu sənaye sektorunda istifadə olunan texnologiyaların böyük bir qismi ətraf mühitə yanacaq emissiyalarında rol oynayır. Binaların tikintisi zamanı bu cür zərərli...

Bax səh. 5

## Bölgələrimiz inkişaf yolunda...

Ölkəmizdə regionların inkişafı ilə bağlı Dövlət proqramlarının uğurla həyata keçirilməsi ötən 21 ildə qeyri-neft sektorunun davamlı inkişafına, yeni müəssisələrin, iş yerlərinin açılmasına səbəb olub. Eyni zamanda, 2004-cü ildən start verilmiş bu strategiya paytaxt Bakı və iri şəhərlərlə bölgələr arasındakı fərqin kəskin şəkildə azalmasına, qəsəbə və kəndlərin simasının köklü şəkildə dəyişməsinə gətirib çıxarıb. Belə ki, 2004-cü il fevralın 11-də ilk regional Dövlət Proqramı qəbul edildikdən indiyədək avtomobil yolları şəbəkəsinin yenilənməsi və inkişafı istiqamətində paytaxtda və regionlarda min km-lərlə yeni yollar çəkilib və ya təmir edilib, 100-dən artıq yol ötürücüsü, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidləri inşa olunub.

Dövlət proqramları bütün bölgələrdə sosial-iqtisadi inkişaf potensialının artmasına, biznes və investisiya mühitinin yaxşılaşmasına əlverişli şərait yaradıb. Dövlət proqramlarının icrası iqtisadiyyatda məhsuldarlığı artırıb, istehsal və emalın həcmləri yüksəlib. Kiçik və orta biznes (KOB) subyektlərinin, kiçik ailə təsərrüfatlarının sayının artması bölgələrdə məşğulluq imkanlarını genişləndirib, nəticədə ölkədə yaranan yeni iş yerlərinin sayı 2 milyon nəfəri ötüb.

Regionların inkişaf proqramları turizm potensialının da güclənməsinə əhəmiyyətli təsir...

Bax səh. 5

## Kiyevdən göndərilən məktubun kod açılışı...

Zelenski Ağ Evdən "küsüb" ayrılmasından cəmisi bir neçə gün sonra peşman olduğunu bəyan etdi. Müasir siyasətin qızıl qanunu yenidən "işə düşdü" - "güclülər haqlıdır" tezisi qarşısında tərksilah olunan Zelenski "günahını yumaq" və "barışıq elan etmək" üçün Trampa məktub ünvanladı. Bu barədə ABŞ prezidenti özü məlumat verib - martın 4-də Konqres üzvləri qarışısındakı çıxışında Tramp Ukraynanın torpaq metalları üzrə razılaşdırılmış, sonradan isə dayandırılmış sazişin imzalanmasına qayıtmaq istədiyini bəyan edib. Tramp Ukrayna prezidentindən vacib məktub aldığını bildirib. Tramp vurğulayıb ki, Ukrayna xammal və təhlükəsizlik sazişini istənilən vaxt imzalamağa hazırdır.

**Zelenski yazır...**

Qeyd edək ki, Oval Kabinetdəki son gərginlik mineral ehtiyatlarla bağlı müqavilədən daha çox Ukrayna ilə Rusiya arasındakı müharibənin sonlandırılmasından qaynaqlanmışdı. Tramp dolayısı ilə bu müharibənin "əsas sponsoru" sayılan ABŞ-a sərf etmədiyini açıq şəkildə ortaya qoydu - Zelenskini isə emosiyalara qapılaraq fərqli ünvanların dəstəyinə inanmamağa çağırdı. Amma Ukrayna prezidenti Trampın "məsləhətinə" qulaq asmayaraq üzünü Avropaya tutdu. Nəticədə Avropanın da vədlərdən qaçması Kiyevi çıxılmaz vəziyyətə...

Bax səh. 6

## Aİ Ukraynadan əlini çəkir?

Artıq Avropa İttifaqı da Ukraynanı meydanda yalnız buraxır. Ukraynanın Aİ-dən gözləntiləri boşa çıxır - bu günə kimi Kiyevə ümid verən, onu müasir hücum xarakterli silahlarla təchiz edəcəyinə, həm də ona daha əlavə maliyyə vəsaiti ayıracağına əmin edən "köhnə qitə" öz sözündən dönür. Belə ki, Avropa İttifaqı Ukraynaya 20 milyard avro məbləğində yeni hərbi yardım paketinin hazırlanmasını dayandırmaq qərarına gəlib.

Xatırladaq ki, bir neçə gün öncə Tramp administrasiyası Ukraynaya hərbi-maliyyə yardımını tamamilə dayandırdığını bəyan etmişdi. Təbii ki, Tramp belə bir addım atmağa Ağ Evdə Zelenski ilə yaşanan gərgin mübahisədən sonra qərar verib. Tramp Zelenski ilə normal dialoqun yalnız Kiyevin Rusiya ilə danışıqlar masası arxasına oturmağa hazır olduqdan sonra mümkün olduğunu bildirib.

Bu arada martın 2-də Londonda keçirilən sammitdə Aİ-nin və Avropa ölkələrinin liderləri, eləcə də Kanada və NATO-nun rəhbəri Ukraynanı yalnız qoymayacaqlarını və sona qədər Kiyevin arxasında olacaqlarını bəyan etdilər. Belə demək mümkünsə, Zelenskiyə mübarizəni davam etdirmək üçün ümid verdilər. Amma Aİ-nin son qərarından görünür ki, dünən Ukraynaya söz verənlər, bu gün öz sözündən dönürlər. Görəsən, Aİ-ni öz vədindən dönməyə nə vadar edib? Qərb KİV-inin məlumatında qeyd olunur ki, Aİ Şurasında...

Bax səh. 6



## Trampdan Aİ-yə mesaj...

Bax səh. 6



## Qrenlandiya müəmması

Bax səh. 7



# Azərbaycan qadınları hər zaman cəmiyyətimizin mənəvi dayağı olublar

## İlham Əliyev 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib

Azərbaycan qadınları hər zaman cəmiyyətimizin mənəvi dayağı olmuş, daim ülvi amallarla yaşamışlar. Çoxəsrlik mədəni-mənəvi sərvətlərimizin günümüzədək layiqincə qorunub saxlanılmasında nəcib və gözəl analarımızın misilsiz xidməti vardır. Onlar öz güclü iradələri, vətənpərvərlik və fədakarlıqları ilə yurdumuzun mübarizə salnaməsində silinməz izlər qoymuşlar.

Bu fikirlər Prezident İlham Əliyevin 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrikində yer alıb.

Dövlətimizin başçısı, həmçinin qeyd edib: “Azərbaycan qadınlarının dünyanın bir sıra qabaqcıl ölkələrinin qadınlarından daha əvvəl seçib-seçilmək hüququ qazanmaları yeni dövr tariximizin əlamətdar faktlarındandır. Mədəniyyət, elm, təhsil və səhiyyənin ən müxtəlif istiqamətləri üzrə müsəlman Şərqinin qadınları arasında ilk addımları atmaları onların yüksək yaradıcı potensialının nəticəsidir. Təqdirəlayiq haldır ki, müasir gənc xanımlarımız bu ənənələrə ehtiram bəsləyir, nəsillərin mənəvi varisliyi prinsipini lazımınca qoruyur, öz maarifpərvər, ziyalı sələflərinin yolunu uğurla davam etdirirlər.

Ötən müddət ərzində milli dövlət quruculuğu prosesində yaxından iştirak edərək bütün sahələrdə əzmlə çalışan qadınlarımız Vətənimizin qüdrətinin artırılması, xalqımızın rifahının yüksəlməsi naminə dolğun və səmərəli fəaliyyət göstərmiş, sosial-iqtisadi və mədəni inkişafda mühüm nailiyyətlər əldə etmişlər”.

Müqəddəs ailə dəyərlərimizə dərin sədaqət nümayiş etdirən qadınlarımızın ölkəmizin ictimai həyatında böyük nüfuza malik olduqlarını bildirən Prezident İlham Əliyev vurğulayıb: “Əminəm ki, onlar gənc nəslin Vətənə və milli ideallara bağlılıq ruhunda yetişməsi üçün bundan sonra da qüvvələrini əsirgəməyəcək, həmçinin ictimai-mənəvi mühitimizi yeni töhfələrlə zənginləşdirəcəklər”.

# Türkiyə-Azərbaycan dostluq, qardaşlıq tarixində önəmli gün...

## İlham Əliyev: Türkiyə ilə Azərbaycan arasındakı birlik, qardaşlıq bütün Türk dünyasına böyük bir töhfədir

## Rəcəb Tayyib Ərdoğan: Strateji və qeyri-adi layihələri həyata keçirməkdə Can Azərbaycan ilə tam uzlaşma içərisindəyik”



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Ankaraya işgüzar səfərə gəlib.

***

Martın 5-də Ankarada İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirdə iştirak ediblər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb.

Açılış mərasimində çıxış edən Azərbaycanın energetika naziri Pərviz Şahbazov bildirib ki, İğdır-Naxçıvan qaz boru kəməri layihəsi Naxçıvanın qaz təchizatını şaxələndirməklə yanaşı, həm Naxçıvan, həm də İğdır əhalisinin rifahına xidmət edəcək. Layihənin daha bir özəlliyi ondan ibarətdir ki, bu gün kəmərin maksimum ötürmə gücü 730 milyon kubmetrdirsə, gələcəkdə layihənin genişləndirilməsi imkanları da var.

Sonra Türkiyənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar çıxış edərək İğdır-Naxçıvan qaz kəməri layihəsini Türkiyə və Azərbaycan qardaşlığının daha bir simvolu adlandırıb. Nazir bütün Naxçıvanı qazla təmin edəcək İğdır-Naxçıvan qaz kəməri layihəsinin ərsəyə gəlməsinə görə dövlət başçılarına təşəkkür edib.

### Azərbaycandan Türkiyə ərazisindən gedən qaz bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir

Mərasimdə çıxış edən Azərbaycan Prezidenti vurğulayıb ki, bu gün Türkiyə-Azərbaycan dostluq, qardaşlıq tarixində önəmli bir gündür - İğdır-Naxçıvan qaz xəttinin açılışı qeyd edilir: “Burada deyildiyi kimi, Naxçıvanda hörmətli Cümhurbaşqanı ilə birlikdə bir il yarım bundan öncə biz bu qaz xəttinin təməlini qoyduq və artıq bu gözəl mərasimdə iştirak edirik.







Bildiyiniz kimi, Naxçıvan qədim Azərbaycan torpağıdır. Ancaq artıq bir əsrdən çoxdur ki, Azərbaycanın əsas hissəsindən ayrılıb. Bunun səbəbi ondan ibarətdir ki, Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə süqut edəndən beş ay sonra sovet hakimiyyəti Qərbi Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana birləşdirdi və beləliklə, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvanla quru bağlantısı pozulub. Bir əsrdən çox davam edən bu ədalətsizlik Naxçıvanda yaşayan bizim soydaşlarımızın həyatına çox mənfi təsir göstərmişdir. Xüsusilə Birinci Qarabağ savaşı başlayan kimi Ermənistan Qarabağı işğal etdi və eyni zamanda, Naxçıvanı blokadaya aldı. Onların planları Naxçıvanı da işğal etmək idi. Ancaq o zaman mənim atam Heydər Əliyev Naxçıvanın rəhbəri kimi buna imkan vermədi və Naxçıvanı qorumaq üçün bütün naxçıvanlılar səfərbər oldular, öz doğma torpaqlarını qorudular və işğalçını yerində oturtdular.

Naxçıvanın o zaman işğal altına düşməməsinin səbəblərindən biri də o idi ki, o zaman Naxçıvanı Türkiyə ilə birləşdirən “Ümid” körpüsü inşa edilmişdir və Türkiyədən gələn yardımlar Naxçıvanın qorunmasına çox önəmli töhfə vermişdir”.

Türkiyə və Azərbaycanın nəhəng layihələr reallaşdırdığını bildirən dövlətimizin başçısı qeyd edib ki, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP kimi neft-qaz boru xətləri layihələri nəinki ölkələrimizi birləşdirdi, eyni zamanda, Avrasiyanın enerji xəritəsini dəyişdirdi: “Bu gün Azərbaycandan Türkiyə ərazisindən gedən qaz bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir. Keçən il Azərbaycanın qaz ixracatı 25 milyard kubmetrə çatmışdır. Onun təxminən yarısı Türkiyəyə olan ixracatdır və Türkiyədən başqa da 11 ölkə, onlardan 10 Avropa ölkəsi Azərbaycan qazını alaraq öz enerji təhlükəsizliyini gücləndirir.

Bu gün açılışında iştirak etdiyimiz layihə Naxçıvanın enerji təhlükəsizliyini təmin edəcək. Çünki Azərbaycandan gələn qaz Türkiyə ərazisindən svop şəklində Naxçıvana ötürülərək, artıq Naxçıvanı da bu problemdən xilas etmiş olacaqdır.

Bizim birgə həyata keçirdiyimiz enerji layihələrimiz, eyni zamanda, nəqliyyat layihələrinin reallaşmasına da imkan verdi. Bu gün Türkiyəni Azərbaycanla birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu çox gözəl üstünlüklər təmin edir, həm ölkələrimiz üçün, həm daha geniş coğrafiya üçün. Xüsusilə Türk dünyasını birləşdirmək üçün bu nəqliyyat bağlantısının çox böyük mənası, çox böyük faydası var və təbii olaraq, Türkiyə ilə Azərbaycan arasındakı birlik, qardaşlıq bütün Türk dünyasına böyük bir töhfədir. Türk dünyasının birləşməsi yolunda əziz Qardaşım, hörmətli Cümhurbaşqanının çox böyük rolu var. Onun liderliyi ilə həm Türkiyədə böyük uğurlar əldə edildi, həm Türk dünyasının daha da sıx birləşməsi üçün yeni imkanlar yarandı. Azərbaycan da hər zaman Türk dünyasının birləşməsinə çox böyük önəm verirdi və öz tərəfindən bu birliyi təmin etmək, bunu əbədi etmək və ortaq maraqlar və ortaq tarix üzərində əlaqələri qurmaq üçün səylərini əsirgəmirdi.

Bugünkü mərasim bir daha Türkiyə-Azərbaycan birliyini, dostluğunu, qardaşlığını göstərir, onun əyani təzahürüdür. Əminəm ki, Naxçıvanda yaşayan 500 minə yaxın soydaşımız bu gün gözəl Ramazan ayında bu mərasimi də bayram kimi qeyd edəcək. Bütün bu işlərdə iştirak etmiş yoldaşlarımıza, dostlarımıza öz adımdan təşəkkürümü bildirirəm. İnşaat işləri qısa müddət ərzində, cəmi bir ildən bir qədər çox çəkdi və biz artıq bu gözəl mərasimdə iştirak edirik”.






### Can Azərbaycanı yanımızda gördüksə, biz də qardaşlarımızın ehtiyac duyduğu hər an yanlarında olacağıq

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə çıxış edərək qonaqları salamlayıb: “Qardaşım Azərbaycan Prezidenti cənab İlham Əliyevi Türkiyədə qəbul etməkdən böyük məmnunluq duyduğumu xüsusilə ifadə etmək istəyirəm. Ona və dəyərli nümayəndə heyətinə Ankaramıza “Xoş gəldiniz!” deyirəm.

Dəyərli qardaşımın və nümayəndə heyətinin timsalında Azərbaycan xalqının mübarək Ramazan ayını ürəkdən təbrik edirəm. “Bir millət, iki dövlət” şüarı ilə formalaşan qardaşlıq münasibətlərimizdə hər sahədə böyük irəliləyişlər əldə edirik. Ölkələrimiz arasındakı münasibətlər müdafiədən ticarətə qədər çox geniş sahədə daim inkişaf edir. Şübhəsiz ki, bu əməkdaşlıqlarımız arasında bir çox layihə ilə taclandırdığımız enerji sektoru başda yer alır. Bəzilərinin xəyal hesab etdiyi Bakı-Tbilisi-Ceyhan xam neft boru kəməri kimi, “Şahdəniz” yatağının və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəmərinin istismara verilməsi ilə enerji əməkdaşlığımızı daha irəliyə aparmağa nail olduq. Anadoludan keçən təbii qaz boru kəməri - TANAP vasitəsilə böyük miqdarda Azərbaycan qazının Avropaya çatdırılmasının sevincini yaşayırıq. Bu sahədə strateji və qeyri-adi layihələri həyata keçirməkdə Can Azərbaycan ilə tam uzlaşma içərisindəyik”.

Bu gün bu əməkdaşlığa yeni bir layihəni də əlavə etməkdən böyük məmnunluq duyduğunu bildirən Türkiyə Prezidenti bəyan edib ki, İğdır-Naxçıvan təbii qaz boru kəməri enerji sahəsində daha əvvəlki strateji təşəbbüslərimizi tamamlayacaq, həmçinin Naxçıvan ilə ortaq taleyimizin bir nişanəsi olacaq: “BOTAŞ tərəfindən inşa edilən 80 kilometr uzunluğunda, gündəlik 2 milyon kubmetrə qədər nəqletmə qabiliyyətinə malik bu kəmər xüsusilə Naxçıvanın təbii qaz ehtiyacının hamısını ən azı 30 il müddətində təmin edəcək. Beləliklə, Naxçıvanın enerji təhlükəsizliyini uzun illər təmin edəcək bir layihəni qardaşımla birlikdə ölkələrimizə qazandırmış oluruq”.

Prezident Rəcəb Tayyib Ərdoğan xüsusilə vurğulayıb ki, Türkiyə və Azərbaycan sülhün, sabitliyin, rifahın tərəfindədir: “Bölgəmizdə ancaq sülh istəyirik, əməkdaşlıq istəyirik, hamımızın birlikdə inkişaf etməsini istəyirik. Bu məqsədlə indiyədək bir sıra addımlar atdıq, səmimiyyətimizi göstərdik. İnşallah, bundan sonra regional sülh, rifah və əmin-amanlıqla bağlı hər cür layihəni birlikdə həyata keçirməkdə qətiyyətliyik.

6 fevral zəlzələləri başda olmaqla, ən çətin günlərimizdə necə ki, Can Azərbaycanı yanımızda gördüksə, biz də qardaşlarımızın ehtiyac duyduğu hər an yanlarında olacağıq. İnşallah, Naxçıvanla elektrik əlaqələrimizin də gücləndirilməsi ilə bu prosesi davam etdirəcəyik”.

Bu mərasimin Türkiyə-Azərbaycan qardaşlığını daha da gücləndirəcəyinə inandığını söyləyən Türkiyə Prezidenti layihənin bütün bölgə üçün xeyirli olmasını arzu edib.

***

Çıxışlardan sonra videobağlantı formatında İğdır-Naxçıvan qaz kəmərinin açılışı oldu.

Azərbaycanın energetika naziri Pərviz Şahbazov və qardaş ölkənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar İğdırda qaz kəmərini işə saldılar.

Sonda xatirə fotosu çəkdirildi.

# Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub

Martın 5-də Ankarada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iftar süfrəsində iştirak ediblər.



# “Bəsirətin Zəfəri”

## Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş tədbir keçirilib


















Martın 5-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş “Bəsirətin Zəfəri” mövzusunda tədbir keçirilib. Tədbir çərçivəsində Milli Məclisin deputatı Samir Vəliyevin “Bəsirətin Zəfəri” kitabının təqdimatı da olub.

Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2025-ci il ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan edilmiş və təsdiq olunmuş Tədbirlər Planına əsasən il ərzində çoxsaylı yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur: “Müstəqil, hüquqi və demokratik dövlət olan Azərbaycanın aparıcı siyasi qüvvəsi kimi Yeni Azərbaycan Partiyası tərəfindən də silsilə tədbirlər keçiriləcəkdir. “Bəsirətin Zəfəri” mövzusunda təşkil olunan bugünkü tədbirimiz də “Konstitusiya və Suverenlik İli” çərçivəsində ölkəmizin müstəqil inkişaf yoluna, möhtəşəm Zəfərimizin tarixi və ictimai-siyasi əsaslarına, nəhayət, yeni mərhələdə suveren Azərbaycanın qarşısında duran əsas hədəflərə nəzər salınması baxımından mühüm əhəmiyyət kəsb edir”.

Tahir Budaqov vurğulayıb ki, müasir dövrdə beynəlxalq münasibətlər sistemində ciddi dəyişikliklər baş verməkdədir. Onun sözlərinə görə, qlobal kataklizmlər fonunda yeni geosiyasi reallıqların meydana çıxdığı - çoxqütblü dünya nizamına transformasiya prosesinin vüsət aldığı bir dönəmdə dövlətçilik maraqlarının qorunması olduqca vacibdir: “Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsində parlaq qələbə qazanaraq öz ərazi bütövlüyünü, 2023-cü ildə bir günlük antiterror əməliyyatı nəticəsində isə tam suverenliyini bərpa edərək keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan Respublikası da belə bir tarixi dövrdə son dərəcə aktual çağırışlarla qarşı-qarşıyadır. Siyasi sabitliyin və milli birliyin qorunması, davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi, regionda daimi sülhə, etibarlı təhlükəsizliyə və çoxşaxəli əməkdaşlığa nail olunması bu baxımdan müstəsna əhəmiyyət daşıyır”.

YAP Sədrinin müavini müstəqil Azərbaycanın konstitusiya quruluşunun əsaslarının xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirildiyini vurğulayıb: “1993-cü il oktyabrın 3-də xalqın iradəsinin nəticəsi olaraq Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyevin milli maraqlara, dövrün tələblərinə və ictimai-siyasi reallıqlara uyğun həyata keçirdiyi siyasətin başlıca istiqaməti müasir - hüquqi və dünyəvi dövlət quruculuğu olmuşdur. İctimai-siyasi sabitliyin, vahid milli ideya - azərbaycançılıq ideologiyası əsasında vətəndaş həmrəyliyinin, milli birliyin təmini, ardıcıl siyasi-hüquqi islahatların reallaşdırılması, müstəqillik dövründə ilk parlament seçkilərinin keçirilməsi və müstəqillik dönəminin ilk Konstitusiyasının hazırlanaraq ümumxalq səsverməsi - referendum əsasında qəbul edilməsi Azərbaycanın demokratik inkişaf yolunda əmin addımlarla irəliləməsini təmin etmişdir. Prezident İlham Əliyevin sərəncamında qeyd edildiyi kimi, Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır”.

O qeyd edib ki, ölkə daxilində məzmun və keyfiyyətcə yeni inkişaf mərhələsindən bəhs edərkən ilk növbədə Prezident İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin milli maraqlara cavab verən, demokratik dəyərləri, qarşılıqlı hörmət və etimad prinsipini özündə ehtiva edən siyasətini ardıcıl islahatlarla dövrün tələblərinə uyğun zənginləşdirərək ölkəmizin Cənubi Qafqaz regionunda və daha geniş coğrafiyada nüfuzunu daha da artırmasını xüsusi vurğulamaq gərəkdir: “Son bir il ərzində keçirilmiş prezident, parlament və bələdiyyə seçkiləri Azərbaycan xalqının Heydər Əliyev ideyalarına, Prezident İlham Əliyevin siyasətinə birmənalı dəstəyinin növbəti təzahürü olmuşdur. Bu gün xalqımız milli məsələlərdə qətiyyətli birlik və həmrəylik nümayiş etdirir, vahid yanaşma və prinsipial mövqe ortaya qoyur, milli təhlükəsizlik, ərazi bütövlüyü, Konstitusiya quruluşu və suverenliyimizin qorunması məsələlərində dövlət başçısının siyasətinə mütləq dəstək göstərir”.

Tahir Budaqov bildirib ki, Azərbaycanın bütün ərazisi üzərində suverenliyinin bərpası regionda ədalətli geosiyasi nizamın - yeni təhlükəsizlik və əməkdaşlıq mühitinin formalaşması, bütövlükdə sülh naminə etimad quruculuğunun həyata keçirilməsi baxımından da böyük önəmə malikdir: “Hər zaman sülh, sabitlik və inkişaf tərəfdarı kimi çıxış edən, öz əməli fəaliyyəti ilə Cənubi Qafqazın fəal dialoq və konstruktiv əməkdaşlıq məkanına çevrilməsində maraqlı olduğunu nümayiş etdirən Azərbaycan həyata keçirdiyi uzaqgörən siyasəti ilə, reallaşdırdığı transmilli layihələrlə qlobal təhlükəsizlik mühitinin formalaşmasına öz töhfələrini verməkdədir. Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində Avrasiyanın mühüm tranzit qovşağına çevrilən ölkəmizin təşəbbüsləri regionda səmərəli işbirliyinin qurulması baxımından bir çox dövlətlər üçün geniş ticari-iqtisadi imkanlar və parlaq perspektivlər yaradır. Dövlət başçısının müstəqil və qətiyyətli siyasəti Azərbaycanın dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli formatda münasibətlərinin inkişafını təmin etməklə yanaşı, beynəlxalq təşkilatlarla əlaqələrin möhkəmlənməsini də şərtləndirir. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə əldə etdiyi nailiyyətlər, BMT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər təsisatlarda səmərəli fəaliyyəti və nəhayət, 2024-cü ilin noyabr ayında COP29-a uğurla ev sahibliyi etməsi və bunun nəticəsi olaraq iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizəyə dair qlobal əhəmiyyətli qərarların qəbulu ölkəmizin beynəlxalq müstəvidə ədalətli və etibarlı tərəfdaş kimi önəmini qabarıq şəkildə bir daha təsdiq etmişdir. Bunlarla yanaşı, Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatı - D8-ə üzv olması, Şanxay Əməkdaşlıq Təşkilatı, BRICS kimi nüfuzlu platformalarda tərəfdaş ölkə kimi işbirliyini diqqət mərkəzində saxlaması yeni geosiyasi çağırışlar fonunda mühüm əhəmiyyətə malikdir. Bu gün Azərbaycanın xarici siyasətinin əsas prioriteti Türk dünyasında ikitərəfli və çoxşaxəli əlaqələri inkişaf etdirərək Türk Dövlətləri Təşkilatını daha da gücləndirməkdir. Hazırda ölkəmizin fəal təşəbbüsləri Türk dünyasında dövlətlərarası münasibətlərin yüksələn xətt üzrə inkişafına xidmət etməklə yanaşı, yeni perspektivlər yaradır. Qarşıdakı dövrdə Zəngəzur dəhlizinin reallaşdırılması və Orta dəhlizin inkişaf etdirilməsi türk dövlətlərinin yeni çoxtərəfli əməkdaşlıq platformasında bir araya gəlməsini, bütövlükdə Türk dünyasında inteqrasiyanın güclənməsini də şərtləndirəcək. Bütün bunlar isə yeni dünya nizamı şəraitində Avrasiyada, xüsusilə də Türk dünyasında geosiyasi fəallığın artmasına təkan verərək uzunmüddətli hədəflərə nail olmağa real zəmin yaradacaqdır”.

YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, Azərbaycanın möhtəşəm Qələbəsindən sonra - 2021-ci il martın 5-də keçirilmiş Yeni Azərbaycan Partiyasının VII qurultayında partiyamızın Sədri, dövlətimizin başçısı İlham Əliyev tərəfindən qarşıya qoyulmuş vəzifələrin ardıcıl şəkildə yerinə yetirilməsi yeni mərhələdə Azərbaycanın önəmli uğurlar əldə etməsinə və milli prioritetlərdən irəli gələn hədəflərin reallaşdırılmasına etibarlı zəmin yaradır: “Sıralarında 750 minə yaxın vətəndaşımızı birləşdirən Yeni Azərbaycan Partiyasının fəaliyyət prinsiplərindən biri konstruktiv əməkdaşlıq və dialoqdur. YAP-ın mövqeyinə görə, siyasi dialoq partiyalararası münasibətlərdə qarşılıqlı əməkdaşlıq yaradır, siyasi həmrəylik şəraitində konstruktivliyi təmin edən mütərəqqi ideyalar formalaşır. Öz fəaliyyətində qanunun aliliyi, azadlıq və bərabərlik prinsiplərini əsas götürən Yeni Azərbaycan Partiyası siyasi plüralizmi təşviq edir, siyasi sistemin inkişafına, Azərbaycanın müasir, demokratik və hüquqi dövlət kimi tərəqqisinə layiqli töhfələr verir. Partiyanın Proqramında qeyd edildiyi kimi, YAP dövlətin idarə olunmasında demokratik prinsipləri əsas götürür, siyasətdə açıq və peşəkar münasibətlərin tərəfdarı kimi çıxış edir. YAP-ın mövqeyinə görə, demokratik siyasi münasibətlər dövlətin mütərəqqi yolla inkişafını şərtləndirən vacib faktordur. Buna görə də partiya demokratik ənənələrə mühüm siyasi dəyər kimi yanaşır və onları möhkəmləndirməyi əsas məqsədlərindən biri hesab edir”.

Tahir Budaqov əlavə edib ki, Yeni Azərbaycan Partiyasının yeni reallıqlardan irəli gələn çağırış və hədəfləri əsası götürərək beynəlxalq əlaqələrini uğurla davam və inkişaf etdirməsi də suveren Azərbaycanın dövlətçilik maraqlarının qorunması üçün böyük önəm kəsb edir: “Partiyamızın beynəlxalq əlaqələrində dost ölkələrin aparıcı siyasi partiyaları ilə münasibətlər mühüm yer tutur. Dövlət başçısının uzaqgörən xarici siyasət kursu əsasında partiya diplomatiyasının həyata keçirilməsi - partiyalar arasında intensiv təmasların müvəffəqiyyətlə davam etdirilməsi, səmərəli fikir və təcrübə mübadiləsinin aparılması yeni reallıqların beynəlxalq arenada təbliği və ölkələrarası münasibətlərin möhkəmlənməsi baxımından əhəmiyyətlidir. Qeyd etmək lazımdır ki, partiyamızın sonuncu qurultayından keçən dördillik müddət ərzində bir sıra ölkələrin, o cümlədən Türkiyə, Özbəkistan, Qazaxıstan, Ukrayna, Şimali Kipr Türk Respublikası, Şimali Makedoniya, Çin və Vyetnamın aparıcı siyasi partiyaları ilə ikitərəfli əməkdaşlıq sazişləri imzalanmış, ICAPP, CDI kimi önəmli siyasi platformalarda YAP-ın fəal iştirakı təmin edilmişdir ki, bu da ölkəmizin siyasi nüfuzunun artmasına xidmət etməklə yanaşı, ümumilikdə dövlətlərarası münasibətlərin inkişafına öz töhfəsini verməkdədir”.

YAP Sədrinin müavini vurğulayıb ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti öz milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir: “Dövlət başçısı, partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə məqsədyönlü fəaliyyətini inamla davam etdirərək inkişaf yolunda əmin addımlarla irəliləyən Yeni Azərbaycan Partiyası da yeni dövrün reallıqları və çağırışlarından irəli gələrək suveren Azərbaycanın milli maraqlarının təmini üçün öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməkdə əzmindədir”.

Tahir Budaqov bildirib ki, Azərbaycanın möhtəşəm Zəfər yolunun hərtərəfli tədqiqi və geniş ictimaiyyətə çatdırılmasında müxtəlif kütləvi nəşrlərin, o cümlədən elmi-tədqiqat işləri, əsərlər, monoqrafiya və kitabların da mühüm rolu var. Onun sözlərinə görə, Milli Məclisin deputatı Samir Vəliye-

davamı 4-cü səhifədə

# “Bəsirətin Zəfəri”

## Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş tədbir keçirilib














əvvəli 3-cü səhifədə

vin müəllifi olduğu “Bəsirətin Zəfəri” adlı kitabda Azərbaycanın müstəqillik dövründə qazandığı nailiyyətlərdən bəhs olunmuş, yeni reallıqlar fonunda qarşıda duran hədəflərə nəzər salınmış və tarixi faktlar, mövcud gerçəkliklər əsasında təhlillər aparılmışdır. YAP Mərkəzi Aparatının rəhbəri bütövlükdə bu əsərin Azərbaycana möhtəşəm nailiyyətlər bəxş edən Heydər Əliyev ideya-siyasi xəttinin və Prezident İlham Əliyevin varislik prinsipinə əsaslanan siyasi kursunun öyrənilməsi və yeni nəslə aşılanması, müasir müstəqil və qalib Azərbaycanın zəngin və şərəfli inkişaf yolunun araşdırılması baxımından dəyərli mənbə olduğunu bildirib.

“Əminliklə söyləyə bilərik ki, “Konstitusiya və Suverenlik İli” Azərbaycanın yeni uğurları və milli gücünün daha da artması ilə əlamətdar olacaqdır. Hər birinizə dövlətimiz və xalqımızın firavan gələcəyi naminə möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız, partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə müqəddəs amallara doğru bu şərəfli yolda inam və əzmlə addımlamağı arzulayır, diqqətinizə görə təşəkkürümü bildirirəm”, - deyə YAP Sədrinin müavini əlavə edib.

Odlar Yurdu Universitetinin rektoru, professor Əhməd Vəliyev çıxışında Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərini vurğulayaraq müasir müstəqil Azərbaycan dövlətinin Ulu Öndərin adı ilə bağlı olduğunu bildirib. O, siyasi varisliyin təmin edilməsinin Azərbaycanın gələcək taleyi üçün müstəsna əhəmiyyətə malik olduğunu söyləyərək müəllifi olduğu “Bəsirətin ünvanı” kitabında bu barədə geniş təhlillərin aparıldığını diqqətə çatdırıb. Onun sözlərinə görə, əsərin mahiyyətini dahi bir şəxsiyyətin qurduğu dövlətçilik modelini, dövlətin, millətin gələcək taleyini Heydər Əliyevdən sonra kimə tapşırmaq olar sualına əsaslı faktlarla cavab verilməsi təşkil edir: “Məhz bu baxımdan, uzun illər təhlillər aparılıb. Azərbaycanda siyasi proseslər, cənab İlham Əliyevin hansı parametrləri ödədiyi, onun genetik kodu, həyata baxışı, dövlətçilik düşüncə tərzi təhlil edilib. Birincisi, cənab İlham Əliyevin Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti kimi o dövrdə Ulu Öndərin yanında olaraq, dünyanın ən nəhəng neft şirkətlərinin Azərbaycana gətirilməsi, beynəlxalq kontraktların imzalanması ilə bağlı fəaliyyətinə nəzər salınıb. Zəngin dünyagörüşünə malik cənab İlham Əliyevin müəllifliyi ilə neft strategiyası neft diplomatiyasına çevrildi. İkincisi, onun YAP-ın rəhbərliyindəki fəaliyyətindən bəhs olunub. Partiyanın siyasi inkişaf tarixi yeni dövrdə cənab İlham Əliyevin simasında yeni liderə ehtiyacın olması reallığını ortaya çıxardı. Üçüncüsü, bütün istiqamətlərdə Zəfər yolunun yolçusu, sabahımıza qarant olan lider - İlham Əliyevin Milli Olimpiya Komitəsində gənclərlə çoxşaxəli iş bacarığına diqqət yetirilib. Dördüncüsü isə, Avropa Şurası Parlament Assambleyasındakı Azərbaycan nümayəndə heyətinin rəhbəri olaraq cənab İlham Əliyevin beynəlxalq müstəvidə ölkəmizi layiqincə, yüksək səviyyədə təmsiletmə qabiliyyəti təhlil olunub”.

Ə.Vəliyev qeyd edib ki, cənab İlham Əliyevin ölkəmizə qarşı olan qüvvələri susdurmaq bacarığı və digər parametrlər - yüksək humanizm, mədəniyyət, soykökünə bağlılıq və Ulu Öndərin varisi olaraq onun qurduğu dövlət modelini qoruma qabiliyyəti tam şəkildə təhlil edilib: “O zaman qeyd edirdik ki, Ulu Öndərdən sonra Azərbaycanın taleyi yalnız və yalnız İlham Əliyevə tapşırıldığı halda, ölkəmizin, xalqımızın gələcəyi ilə bağlı nikbin proqnozlar gerçəkləşəcək. Məhz bu gün “Bəsirət ünvanı”mız öz ünvanına - “Bəsirətin Zəfəri”nə yetişdi”.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli çıxışında bildirib ki, xalqımız hər zaman Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyevlə qürur duyur: “Bu gün iftixarla deyə bilərik ki, Prezident İlham Əliyev regionumuzun yeni tarixinin formalaşmasında həlledici rol oynayır. Dövlətimizin başçısı dünyada sülh və əməkdaşlığa, həm də əmin-amanlığın bərqərar olunmasına böyük töhfələr verir. Bu, Azərbaycan xalqının son yarım əsrdən çox bir dövrdə - 1969-cu ildən başlanan və bu günə qədər davam edən ictimai-siyasi həyatının və real tarixinin ən möhtəşəm nəticəsidir. Xalqımız öz dahi liderlərinin işığında ölkəmizdə müasir inkişafın təmin edilməsinə nail olub, həmçinin dünyanı sağlam məcraya doğru yönəltməyə böyük töhfələr verib”.

İ.Həbibbəyli qeyd edib ki, “Bəsirət ünvanı” və “Bəsirətin Zəfəri” kitabları Azərbaycanın yeni liderlik modelinin təqdimatına həsr olunan çox sanballı əsərlərdir: “Azərbaycanın təcrübəsi göstərdi ki, siyasi varislik real inkişafın və parlaq gələcəyin mühüm təminatıdır. Müstəqillik illərində “demokratiya”, “plüralizm” adı altında Qərbin diktə etdiyi ölkələrdə bir çox siyasi eksperimentlərin şahidi olmuşuq. Bu eksperimentlər həmin xalqlara yalnız böhran, qarşıdurmanın bütün təzahürlərini və anarxiya gətirdi. Azərbaycan dövlətinin rəhbərliyində Heydər Əliyev kimi böyük bir dühə və sonrakı dövrdə isə İlham Əliyev kimi güclü lider dayandığı üçün anarxiyaya qətiyyən yol verilməyib. Azərbaycan düzgün idarə olunub, uğurla inkişaf etdirilib, nəticədə bugünkü zəfərlərlə nail olunub. “Bəsirət ünvanı” və “Bəsirətin Zəfəri” kitabından çıxan ən böyük nəticə elə bundan ibarətdir”.

İ.Həbibbəyli deyib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Zəfər yürüşü və Böyük Qayıdış prosesi “Bəsirətin Zəfəri” kitabında liderliyin əsasları, səbəbləri və nəticələri haqqında aparılan bütün təhlillərin yekunu kimi təqdim olunub: “Bəsirətin Zəfəri” kitabını Azərbaycanın zəfərlər hərəkatının möhtəşəm salnaməsi hesab edirəm”.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov çıxışında bildirib ki, 2025-ci il Azərbaycan xalqının tarixinə iki böyük siyasi hadisənin qeyd olunması ilə daxil olub: “Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 2025-ci il “Konstitusiya və Suverenlik İli” elan edilib. Cari ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümü münasibətilə çoxsaylı tədbirlər keçiriləcəkdir”.

O qeyd edib ki, 1918-1920-ci illərdə müsəlman Şərqində mövcud olan ilk Cümhuriyyətimiz xarici müdaxilə nəticəsində süqut etdi, Konstitusiya qəbul edə bilmədi. Qonşu dövlətlərlə ərazi mübahisələri həll edilə bilmədiyinə görə dövlət suverenliyinə nail olunmadı: “1991-ci ildə isə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bütün çətinliklərə baxmayaraq, Ümummilli Lider Heydər Əliyev 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul olunmasına nail oldu. Bu, Heydər Əliyev siyasətinin ən uğurlu addımlarından idi”.

Komitə sədri deyib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanı tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxardı: “Ulu Öndər vətəndaş müharibəsinin qarşısını aldı, qardaş qırğınına imkan vermədi. Ümummilli Lider Heydər Əliyevin müstəqil Azərbaycanın qorunub saxlanması və işğal edilmiş torpaqları geri qaytarmaq, dövlət suverenliyini bərpa etmək üçün atdığı addımları Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirdi və başa çatdırdı. 30 ildən artıq Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayan erməni hərbi birləşmələri 44 günlük Vətən müharibəsi və bir gün davam edən antiterror əməliyyatı nəticəsində darmadağın edildi, torpaqlarımız Ali Baş Komandanın rəhbərliyi altında qəhrəman əsgərlərimiz tərəfindən azad edildi, Azərbaycanın dövlət suverenliyi bərpa olundu, üçrəngli bayrağımız ilk dəfə Azərbaycanın bütün bölgələrində qürurla dalğalanmağa başladı, Azərbaycan qalib dövlətlərin sırasında yer aldı”.

Komitə sədri çıxışında “Bəsirətin Zəfəri” kitabının əhəmiyyətinə də toxunub. Onun sözlərinə görə, kitab Ümummilli Lider Heydər Əliyev və Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin cahanşümul fəaliyyətinə həsr olunub: “Müstəqil Azərbaycan dövlətinin memarı, Ulu Öndər Heydər Əliyevin əvəzsiz xidmətləri tarixi faktlarla əsaslandırılır, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda Ali Baş Komandan İlham Əliyevin mübarizəsinin nəticəsi olaraq çağdaş Azərbaycanın uğurları oxucuların diqqətinə çatdırılır”.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev çıxışında bildirib ki, Prezident İlham Əliyev tərəfindən 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi tarixi qərardır. Komitə sədri deyib ki, ilk milli Konstitusiyamız Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanıb və 1995-ci ildə ümumxalq səsverməsi nəticəsində qəbul edilib: “Konstitusiyada ölkəmizdə demokratikləşmə prosesinin əhatə dairəsinin genişləndirilməsini, vətəndaş cəmiyyətinin fəallığının artırılmasını, vətəndaşların hüquq və azadlıqlarının qorunmasını, fikir plüralizminin təmin olunmasını özündə ehtiva edən mühüm müddəalar yer alıb”.

Onun sözlərinə görə, ölkəmizin bütün ərazisində Konstitusiya quruluşu və suverenliyin tam bərpa edilməsi tarixi nailiyyətdir: “Bütövlükdə 44 günlük müharibədə və birgünlük antiterror tədbirlərində qazanılan qələbələr son 200 illik tariximizin ən parlaq səhifələrini təşkil edir. Bu qələbələr tariximizdə əbədi qalacaq və həmişə də qürur mənbəyimiz olacaq”.

A.Nağıyev əlavə edib ki, Azərbaycanın uğur və zəfər yolunun bünövrəsi Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub: “Öz xalqından böyük dəstək alan Prezident İlham Əliyev güclü ordu yaratdı, xalq-iqtidar birliyi sayəsində torpaqlarımızı işğaldan azad etdi. Bununla da Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi. Beləliklə, bu gün regionumuzda yeni reallıqlar yaranıb”.

O vurğulayıb ki, “Bəsirətin Zəfəri” kitabında da Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən yola geniş nəzər salınıb: “Dörd fəsildən ibarət olan kitabda Heydər Əliyev fenomeni milli-tarixi kontekstdə təqdim olunub, Ulu Öndərin xalqımız qarşısında misilsiz xidmətlərindən geniş bəhs edilib. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun uğurları, eyni zamanda, yeni çağırışların lideri olan cənab İlham Əliyevin fəaliyyəti ön plana çıxarılıb”.

Sonra çıxış edən Milli Məclisin deputatı Samir Vəliyev bildirib ki, Prezident İlham Əliyevin son iyirmi ildən artıq müddətdə apardığı siyasət bütün dünyada artıq nümunə kimi qəbul olunan inkişaf modelini formalaşdırıb: “Bu siyasət nə qədər nəticəyönümlüdürsə, onun miqyası nə qədər böyükdürsə, bu barədə yazmaq da bir o qədər böyük məsuliyyətdir. Müəllifi olduğum “Bəsirətin Zəfəri” kitabı professor Əhməd Vəliyevin müəllifi olduğu “Bəsirət ünvanı” kitabının məntiqi davamıdır”.

Onun sözlərinə görə, XX əsr Azərbaycanının heç kimdə mübahisə və şübhə doğurmayan bir həqiqəti var - bu, Heydər Əliyev fenomenidir: “Müdrik, uzaqgörən siyasətçi, bütün varlığı ilə xalqına, Vətəninə bağlı unikal şəxsiyyət olan Heydər Əliyevə ona qədərki iqtidardan çox ağır miras qalmışdı. Azərbaycanın müstəqilliyinin itirilməsi təhlükəsi real idi. Belə ağır vəziyyətdə hakimiyyətin məsuliyyətini öz üzərinə götürmək siyasətçidən böyük cəsarət tələb edirdi. Xalqımız və dövlətimizin xilası missiyası məhz Heydər Əliyevin üzərinə düşdü və o, bu missiyanı özünə xas olan müdrikliklə yerinə yetirməyə nail oldu”.

Millət vəkili qeyd edib ki, yaradılan bünövrə onun üzərində güclü Azərbaycan qurmaq üçün etibarlı zəmin idi: “Heydər Əliyevin müdrikliyi həm də onda idi ki, bir tərəfdən milli dövlət üçün son dərəcə zəruri olan siyasi varislik ənənəsinin əsasını qoydu, digər tərəfdən isə cənab İlham Əliyevin timsalında bu kursa, milli dəyərlərə, ənənələrə sadiq, eyni zamanda, yeni çağırışları qarşılamağa qadir olan varis-lider yetişdirdi. Ulu Öndərimizin İlham Əliyevi özünün siyasi varisi kimi müəyyənləşdirməsi onun Azərbaycan naminə növbəti tarixi missiyası idi. Cənab İlham Əliyevin bilik və bacarığına, xarizmasına, məsələlərə strateji yanaşmaq qabiliyyətinə, vətənpərvərliyinə, milliliyinə yaxşı bələd olan Ulu Öndərimiz əmin idi ki, ondan həyat və siyasət dərsi almış İlham Əliyev müasir dövrün lideri olmağı, Azərbaycanı gələcəyə aparmağı bacaracaq”.

S.Vəliyev bildirib ki, Azərbaycanın son 20 ildən çox müddətdə keçdiyi yol, daxili və xarici siyasətdə qazanılan uğurlar dahi Heydər Əliyevin seçiminin nə qədər düzgün olduğunu əyani şəkildə təsdiqləyir: “Cənab İlham Əliyev Ulu Öndərimizin ona bəslədiyi inamı bütünlüklə doğruldub. 2003-cü ildə İlham Əliyevin rəhbərliyi ilə başlayan yolun ən böyük uğuru Qarabağ Zəfərimiz, ölkənin suverenliyinin bərpasıdır”.

Milli Məclisin deputatı deyib ki, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpa edilməsi ilə əsas ümummilli hədəfimizə çatmışıq: “Dövlətimizin başçısı heç vaxt qazanılan nailiyyətlərlə kifayətlənmir. Prezident İlham Əliyev daim yeni reallıqlara və çağırışlara uyğun gündəlik müəyyənləşdirir, milli gücü məharətlə qarşıya qoyulan hədəflərə çatmağa səfərbər edir. Postmüharibə dövründə başlayan yeni strateji mərhələ üçün müəyyənləşdirilən beş mühüm prioritetdən biri işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın təmin edilməsidir. Hazırda bu istiqamətdə möhtəşəm addımlar atılır”.

“Bir vaxtlar böyük həyat təcrübəsinə malik olan Ulu Öndərimiz bizlərə bəsirətin ünvanını göstərirdi. Onun həmişə zamanı qabaqlayan ideyaları artıq reallıqdır. Aradan 20 ildən bir qədər çox vaxt ötəndən sonra biz artıq bəsirətin zəfərindən danışırıq. Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan nailiyyətlər, uğur salnaməsi bizi gələcəyə daha nikbin baxmağa sövq edir. Bu gün qüdrətli Azərbaycan regionda yeni reallıqlar yaradan və əsas söz sahibi olan dövlətdir. Əminik ki, gələcəkdə də belə olacaq, Prezident İlham Əliyevin apardığı siyasət Azərbaycanı yeni zirvələrə yüksəldəcək”.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Bölgələrimiz inkişaf yolunda...

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə hazırlanmışdır

## Dövlət proqramlarının uğurlu icrası regionlarda qeyri-neft sektorunun inkişafına səbəb olub

*Səlim*

Ölkəmizdə regionların inkişafı ilə bağlı Dövlət proqramlarının uğurla həyata keçirilməsi ötən 21 ildə qeyri-neft sektorunun davamlı inkişafına, yeni müəssisələrin, iş yerlərinin açılmasına səbəb olub. Eyni zamanda, 2004-cü ildən start verilmiş bu strategiya paytaxt Bakı və iri şəhərlərlə bölgələr arasındakı fərqin kəskin şəkildə azalmasına, qəsəbə və kəndlərin simasının köklü şəkildə dəyişməsinə gətirib çıxarıb. Belə ki, 2004-cü il fevralın 11-də ilk regional Dövlət Proqramı qəbul edildikdən indiyədək avtomobil yolları şəbəkəsinin yeniləşməsi və inkişafı istiqamətində paytaxtda və regionlarda min km-lərlə yeni yollar çəkilib və ya təmir edilib, 100-dən artıq yol ötürücüsü, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidləri inşa olunub.



Dövlət proqramları bütün bölgələrdə sosial-iqtisadi inkişaf potensialının artmasına, biznes və investisiya mühitinin yaxşılaşmasına əlverişli şərait yaradıb. Dövlət proqramlarının icrası iqtisadiyyatda məhsuldarlığı artırıb, istehsal və emalın həcmləri yüksəlib. Kiçik və orta biznes (KOB) subyektlərinin, kiçik ailə təsərrüfatlarının sayının artması bölgələrdə məşğulluq imkanlarını genişləndirib, nəticədə ölkədə yaranan yeni iş yerlərinin sayı 2 milyon nəfəri ötüb.

Regionların inkişaf proqramları turizm potensialının da güclənməsinə əhəmiyyətli təsir göstərib. Turizm sektoru ölkə iqtisadiyyatının digər sahələrində, o cümlədən nəqliyyat və rabitə, tikinti, kənd təsərrüfatı, əhaliyə istehlak mallarının istehsalı və s. bölmələrdə də inkişafa təkan verib. 2024-cü ildə isə turizmdən əldə edilən gəlirlərin həcmi 1,5 milyard dollara bərabər olub.

**Qeyri-neft sektorunun inkişafında mühüm töhfə**

Mövzu barədə "Yeni Azərbaycan"a danışan iqtisadçı Fuad İbrahimovun sözlərinə görə, regionların inkişafı ilə bağlı yürüdülən siyasət ölkə iqtisadiyyatının əsasını təşkil edən sənayedə əsaslı dönüş yaradıb, bu sahədə yeni istehsal müəssisələrinin yaradılması ilə bağlı çoxsaylı layihələr icra olunub: "Sənaye sektoru iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişaf etdirilməsində mühüm rol oynayır, sənaye sahəsində ümumi istehsalın artması ümumi iqtisadi inkişafda töhfəverici rol oynayır. Bu baxımdan 2024-cü ildə də ölkə sənayesi üçün dinamik inkişaf dövrü kimi xarakterizə oluna bilər. Dövlət Statistika Komitəsinin məlumatına görə, sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən hesabat ilində 64,1 milyard manatlıq və ya 2023-cü illə müqayisədə 1,1 faiz çox sənaye məhsulu istehsal edilib. Neft-qaz sektorunda məhsul istehsalı 0,5 faiz, qeyri- neft-qaz sektorunda isə 7,3 faiz çoxalıb. Sənaye məhsulunun 64,3 faizi mədənçıxarma, 29 faizi emal, 4,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub".

**Ərzaq təhlükəsizliyi təmin olunur**

F.İbrahimov qeyd edib ki, regional dövlət proqramları çərçivəsində kənd təsərrüfatının inkişafı ilə bağlı həyata keçirilən tədbirlər də prioritet istiqamət kimi müəyyən olunub və aqrar sahədə də xeyli müsbət dəyişikliklər baş verib: "Aqrar sahənin vergilərdən azad edilməsi, subsidiyaların, güzəştli kreditlərin verilməsi və digər dövlət dəstəyi mexanizmlərinin tətbiqi, bu sahənin inkişafında mühüm rol oynayıb. Aqrar sektorun su təminatının yaxşılaşdırılması məqsədilə dövlət investisiyaları hesabına Taxtakörpü, Şəmkirçay, Tovuzçay və Göytəpə su anbarları, Baş Mil-Muğan kollektoru tikilib, digər iri layihələr reallaşdırılıb. Həmçinin, bu istiqamətdə həyata keçirilən meliorativ tədbirlər, aqrotexniki xidmət işləri kənd təsərrüfatının inkişafına təkan verib. Bunun nəticəsidir ki, ötən dövrdə ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasında xüsusi əhəmiyyət daşıyan bitkiçilik və heyvandarlıq sahələrində bir neçə dəfə inkişaf dinamikası qeydə alınıb, ölkəmizin ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi xeyli yaxşılaşıb. Ötən müddət ərzində iri fermer təsərrüfatları, aqroparklar, intensiv bağçılıq təsərrüfatları, müasir istixanalar, logistik mərkəzlər yaradılıb, kənd təsərrüfatı məhsulları istehsalının inkişafına xidmət edən infrastrukturun maddi-texniki bazası möhkəmləndirilib ki, bu da gələcəkdə aqrar bölmənin daha da inkişafına səbəb olacaq".

**Qarabağ və Şərqi Zəngəzur iqtisadi gücü daha da artıracaq**

İqtisadçının sözlərinə görə, ölkəmizin inkişafında yeni mərhələ başlayıb, torpaqlarımızın işğaldan azad edilməsi iqtisadi inkişaf üçün yeni imkanları formalaşdırmaqdadır. "Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin ən mühüm istiqaməti işğaldan azad edilmiş ərazilərdə şəhər və kəndlərin yenidən salınması, müasir sosial-mədəni infrastrukturun qurulması, kommunikasiya və nəqliyyat xətlərinin bərpasıdır. Bu tədbirlər, eyni zamanda azad ərazilərdəki iqtisadi imkanların üzə çıxarılmasına xidmət edir. Həyata keçirilən bu layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, davamlı iqtisadi fəallığın təmin olunmasına dərin zəmin yaradır. Böyük maliyyə vəsaiti hesabına bu işləri öz gücü ilə həyata keçirən Azərbaycan hökuməti yaxın illərdə Qarabağa və Şərqi Zəngəzuru inkişaf etdirməklə ölkəmizin iqtisadi gücünün daha da artmasına nail olacaq".

# "Yaşıl tikinti"yə keçid üçün mühüm platforma

## Bakıda keçiriləcək "Dayanıqlı Tikinti Zirvəsi"ndə dünyanın nəhəng inşaat holdinqləri müasir şəhərsalma planlarını müzakirə edəcəklər

Gələn ay Bakıda Azərbaycan Sənaye Təhlükəsizliyi Assosiasiyası və "PMD Projects" MMC-nin birgə təşkilatçılığı ilə İkinci Dayanıqlı Tikinti Zirvəsi tədbiri keçiriləcək. Tədbir ötən il ölkəmizdə keçirilmiş COP29 sammitinə dəstək məqsədilə imzalanmış "Dayanıqlı Yaşıl Tikinti Bəyannaməsi"ndən irəli gələn təşəbbüslərə əsasən təşkil olunacaq. Bir çox ölkələrin tanınmış inşaat, daşınmaz əmlak, tikinti-quraşdırma, təmir, infrastruktur şirkətlərinin rəhbərlərinin iştirak edəcəyi Zirvə toplantısında müasir tikinti meyarları, o cümlədən, şəhər infrastrukturunun yenidən qurulmasında "yaşıl tikinti" alətlərinin tətbiqi yolları və digər innovativ təşəbbüslər müzakirə olunacaq.

### Bakının Baş planı "ağıllı tikinti" konseptinə əsaslanır

"Dayanıqlı Tikinti Zirvəsi" özəl və dövlət müəssisələrinin nümayəndələri, şirkət rəhbərləri və müasir tikinti sahəsində peşəkar mütəxəssislərin, həmçinin inşaat sənayesində çalışan sahibkarların karbon emissiyalarının azaldılması istiqamətində qabaqcıl təcrübələri mənimsəmək və bölüşmək, eyni zamanda inşaat və şəhərsalma sahələrində tətbiq olunan qabaqcıl yanaşmaları tətbiq etmək üçün əlverişli platforma hesab edilə bilər.

Aparılmış təhlillərə əsasən, tikinti sektorunun ətraf mühitə böyük təsirləri var, bu sənaye sektorunda istifadə olunan texnologiyaların böyük bir qismi ətraf mühitə yanacaq emissiyalarında rol oynayır. Binaların tikintisi zamanı bu cür zərərli emissiyaların təsiri 20 faiz, sonrakı infrastruktur, təminat və enerji təchizatı zamanı isə 40 faiz təşkil edir. Bu baxımdan dünya ölkələrində "yaşıl tikinti" texnologiyaları neçə illərdir ki, inşaat və yenidənqurma işlərində ön planda dayanmaqdadır. Azərbaycan da bu sürətli keçiddən kənarda qalmaq istəmir, respublikamız müasir tikinti sənayesində innovasiyaları "yaşıl tikinti" sütunları üzərində inkişaf etdirməyi qarşıya məqsəd qoyub. Ölkənin əsas meqapolisi olan Bakının yeni Baş planında müasir tikinti modellərindən istifadəyə geniş yer verilib ki, bu amil də "ağıllı tikinti"nin geniş tətbiqi və digər mühüm məqamları ön plana çıxarır. Paytaxtın yeni siması "yaşıl inşaat və şəhərsalma" modellərinə əsaslanmaqla, şəhər və ətraf mühitin regenerasiyası gücləndirilməsini, "təmiz şəhər" yanaşmasını tələb edir ki, bu faktorlar "yaşıl tikinti" konsepsiyasını daha da aktuallaşdırır.

### COP29-dan gələn öhdəlik

Azərbaycan həm də qlobal iqlim ailəsində təşəbbüskar və məsuliyyətli ölkə kimi "yaşıl həmrəylik" strategiyasının bütün prioritetlərinə sadiqliyini nümayiş etdirir. Son bir ildə istiqamətdə nüfuzlu tikinti holdinqləri ilə görüşlər keçirilib. Aparılan səmərəli danışıqların yekunu olaraq Azərbaycanda fəaliyyət göstərən 11 tikinti və COP29 Təşkilat Komitəsinin bir neçə üzvü "Dayanıqlı Yaşıl Tikinti Bəyannaməsi" imzalayıb. Eyni zamanda, COP29 sammitində əsas müzakirə panellərində ölkəmiz özünün nümunəvi qərarları ilə ətraf mühitə sənaye fəaliyyətlərinin təsirlərinin azaldılması istiqamətində ardıcıl iradəsini göstərdi. Bütün bunlar "yaşıl tikinti"yə keçiddə Azərbaycanın beynəlxalq tərəfdaşlarla sıx işləmək niyyətlərini ifadə etdi.




Hazırkı reallıqlar isə ölkəmizdə "yaşıl tikinti" seqmentinə keçidin daha da sürətləndiyini təsdiqləməkdədir və ardıcıl addımlar ekoloji cəhətdən təmiz və sağlam binaların tikintisində ən qabaqcıl meyarların genişləndiyini göstərir.

### "Yaşıl tikinti" iqtisadi və sosial sahəyə faydalar verir

"Yaşıl tikinti" təkcə ekoloji baxımdan təmiz deyil, həm də iqtisadi və sosial cəhətdən davamlı müsbət faydalar verir. Xüsusilə də tikinti sektorunda xərclərə qənaət edilməsi baxımından faydası böyükdür. Bu tikinti yanaşması əməliyyat xərclərini azaltmaq, biznesin səmərəliliyini artırmaq və riskləri azaltmaq üçün nəzərdə tutulub. Belə ki, "yaşıl tikinti" layihələrinin idarə edilməsi sayəsində daha səmərəli, qənaətcil texnologiyalardan, ucuz enerji və xidmətlərdən istifadə mümkün olur, bu isə həm dövlətin, həm də özəl tikinti şirkətlərinin xərclərinin azalmasına səbəb olur. Dövlətin tikinti investisiyalarının dəyəri azalmaqla bərabər, inşaat layihələrinə sərmayə qoymaq potensialı da artır.

"Yaşıl tikinti" layihəsinin digər bir üstünlüyü inşaatda istifadə olunan mal və xidmətlərin, avadanlıqların yeni texnologiaylara əsaslanmasıdır ki, bu da insanların rahatlığı, sağlamlığı və xərcləri üçün də müsbət əhəmiyyət kəsb edir. Belə ki, bu layihələr üzrə binalarda istifadə olunan ekoloji təmiz materiallar insan sağlamlığına səbəb olur, düzgün havalandırma sistemləri, iqlim texnologiyaları, suya və istiliyə qənaət edən santexnika sistemləri məsrəfləri azaldır

Beləliklə, "Dayanıqlı Tikinti Zirvəsi" Azərbaycanın tikinti şirkətləri üçün "yaşıl tikinti"yə keçiddə qlobal trendlərə inteqrasiyasının daha da möhkəmlənməsində əlverişli zəmin yaradacaq.

*E.CƏFƏRLİ*

# Vardanyan ədalət məhkəməsi qarşısında...

## Təqsirləndirilən şəxsə suallar ünvanlanıb

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, həmçinin terrorçuluq, terrorçuluğu maliyyələşdirməyə dair maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesinin baxış iclası davam etdirilir. Qeyd edək ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında açıq məhkəmə iclasında təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

**Vəsatətlərin baxılmamış saxlanılması məhkəmədən xahiş edilib**

Martın 4-də keçirilən növbəti iclasın əvvəlində Ruben Vardanyanın müdafiəçisi Avraam Berman məhkəməyə müraciət edərək müdafiə etdiyi şəxsə hüquq və vəzifələrinin izahına dair bildirişin təqdim olunması, işin materialları, o cümlədən məhkəmə iclasının protokolları ilə tanış olmaq üçün əlavə şəraitin yaradılması, təqsirləndirilən şəxs qismində cəlbetmə haqqında qərarın rus dilinə tərcümə variantının təqdim olunmasına dair vəsatətləri təqdim edib. Dövlət ittihamını müdafiə edən Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev vəsatətlərə münasibət bildirərək qeyd edib ki, eyni məzmunlu vəsatətə əvvəlki məhkəmə proseslərində baxılaraq müvafiq qərar qəbul olunub. Belə ki, təqsirləndirilən şəxsə həm ibtidai istintaqın, həm də məhkəmənin gedişində işin materialları ilə tanış olmaq üçün kifayət qədər vaxt verilib. Həmçinin təqsirləndirilən şəxsə hüquq və vəzifələrinin izahına dair bildirişlərin, cinayət məsuliyyətinə cəlbetmə haqqında qərarın təqdim olunması işin materialları ilə təsdiq edilir. Bütün bunları nəzərə alaraq prokuror həmin vəsatətlərin baxılmamış saxlanılmasını məhkəmədən xahiş edib. Məhkəmə iclasında iştirak edən zərərçəkmiş şəxslər ittiham tərəfinin mövqeyi ilə razılaşdıqlarını bildiriblər. Həmçinin işin materialları ilə tanış olmaq üçün təqsirləndirilən şəxsə kifayət qədər vaxt verildiyi məhkəmə heyəti tərəfindən diqqətə çatdırılıb - bununla belə, təqsirləndirilən şəxs işin materiallarında olan sənədlər, o cümlədən məhkəmə iclasının protokolları ilə tanış olmaq istəyirsə, bununla bağlı ona yenidən şərait yaradılacağı diqqətə çatdırılıb.

**Helikopter tipli PUA-ların alınması soruşulub...**

Təqsirləndirilən şəxs Ruben Vardanyana sərbəst ifadə verməsi yenidən təklif olunsa da, o, ifadə verməkdən imtina edib. Dövlət ittihamını müdafiə edən prokurorlar təqsirləndirilən şəxsə ittiham olunduğu cinayət əməlləri üzrə suallar veriblər. Vardanyandan həmtəsisçisi olduğu, humanitar məqsədlər pərdəsi altında fəaliyyət göstərən təşkilatların təyinatı, məqsədləri, vaxtilə işğal altında olmuş ərazilərdə həyata keçirilmiş layihələr, həmin təşkilatların üzvləri ilə münasibətləri, eləcə də ictimai fəal Mirzə Dinnayinin Azərbaycan Respublikasının vaxtilə işğal altında olmuş suveren ərazisi Qarabağa qanunsuz səfər etməsi, onunla keçirdiyi görüşlər, helikopter tipli pilotsuz uçuş aparatlarının (PUA) alınması və onları istehsal edəcək zavodun inşası üçün texniki sənədlərin əldə edilməsi barədə apardığı danışıqlar, Arman Djilavyan adlı şəxsə zavodun inşası məqsədilə müvafiq sənədlərin alınmasına dair verdiyi tapşırıqlar, bu fəaliyyəti Ermənistan Respublikası ilə razılaşdırması barədə suallar ünvanlanıb. Vardanyana "VoMa" terror təşkilatının qurucusu Vartanov Vladimir (Vova) Levanoviçlə münasibəti, aralarında vatsap vasitəsilə aparılan yazışmalar və göndərilən səsli mesajlar, təşkilat tərəfindən Ermənistanın nəzarətində olan Qarabağdakı qanunsuz silahlı birləşmələrə təlimlərin keçirilməsinin təşkili və maliyyələşdirilməsi, Vladimir Vartanovun Birinci Qarabağ müharibəsində, 2016-cı ilin Aprel döyüşlərində və İkinci Qarabağ müharibəsində Azərbaycan Respublikası ərazisində Silahlı Qüvvələrimizə qarşı hərbi əməliyyatlarda iştirak etməsi, təşkilatın təlimçiləri barədə də suallar verib.



**Qondarma rejim üçün ZRK təchizi...**

Vardanyandan təhlükəsizlik məsələləri üzrə ekspert adı altında fəaliyyət göstərən "27 Komitəsi" hərəkatının təsisçisi və sədri Poqosyan Vladimir Sergeyeviçlə münasibətləri, onunla "Signal" mobil tətbiqi, eləcə də digər mobil tətbiqlər və sosial şəbəkələr vasitəsilə apardığı danışıqlar və yazışmalar, aralarında işbirliyinin olub-olmaması, "düşmən" adlandırdıqları Azərbaycan dövlətini böyük itkilərə məruz qoymaq, hətta zərbə vurmaq məqsədilə "xüsusi əməliyyatlar qüvvələrinin milli mərkəzi"nin yaradılmasının Ermənistan dövlətinin planı olub-olmaması, "böyük itkilər"in nədən ibarət olması, həmin mərkəzin digər üzvləri və maliyyələşmə qaydaları da soruşulub. Təqsirləndirilən şəxsdən Rusiya Federasiyası ərazisində fəaliyyət göstərən "AKVA" şirkətinin məsul şəxsləri ilə danışıqlar aparmaqla qondarma rejim üçün zenit-raket komplekslərinin (ZRK) alınması, eləcə də bu qurğuları istehsal edəcək müəssisənin inşası üçün vəsait toplanması, özünü Qarabağda yaşayan erməniəsilli şəxslərə "humanitar yardım göstərən" sahibkar kimi təqdim edən, bir müddət guya yalnız sosial-iqtisadi məsələlərə cavabdehlik daşıyan "dövlət naziri" kimi hərbi təyinatlı qurğuların istehsalı müəssisəsini yaratmaqda məqsədi də soruşulub. Təqsirləndirilən şəxsə ittiham aktında yer alan digər məsələlər barədə də suallar ünvanlanıb.

**"Nemezis-2" terror əməliyyatı...**

R.Vardanyana Azərbaycan Respublikasının xarici ölkələrdə olan diplomatik korpusunun nümayəndələrinə qarşı terror aktları törədilməsi üçün "Nemezis-2" terror əməliyyatının başlanılmasına təşəbbüs göstərməsi, həmin terror əməllərinə hazırlıq görməsi, əməliyyatın hansı səbəbdən məhz "Nemezis-2" adlandırılması, bu əməliyyatın başlanılması təşəbbüsünü irəli sürməkdə məqsədi və terror əməliyyatlarını konkret olaraq kimlərə qarşı həyata keçirməyi planlaşdırdığı, azərbaycanlı diplomatlara qarşı terror aktlarını törətməklə vermək istədiyi mesaj, terror əməliyyatının həyata keçirilməsi planları barədə kimlərlə məsləhətləşmələr aparması da soruşulub. Təqsirləndirilən şəxs Ruben Vardanyan ona verilmiş sualların heç birini cavablandırmayıb.

**Səsli danışıqlar və yazışmalar, foto və videogörüntülər nümayiş etdirilib**

Məhkəmə baxışı zamanı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətində istintaqı aparılmış cinayət işi üzrə toplanılmış materiallar, o cümlədən cinayət işi üzrə sübut kimi çıxış edən Ruben Vardanyanın qeyd olunan məsələlərlə bağlı vatsap, "Signal" və teleqram tətbiqləri üzərindən şəxsən apardığı səsli danışıqlar və yazışmalar, tərtib etdiyi sənədlər, foto və videogörüntülər ona verilən suallarla əlaqədar məhkəmə zalında nümayiş etdirilib.

*SADİQ*

# Kiyevdən göndərilən məktubun kod açılışı...

Zelenski Ağ Evdən "küsüb" ayrılmasından cəmisi bir neçə gün sonra peşman olduğunu bəyan etdi. Müasir siyasətin qızıl qanunu yenidən "işə düşdü" - "güclülər haqlıdır" tezisi qarşısında tərk-silah olunan Zelenski "günahını yumaq" və "barışıq elan etmək" üçün Trampa məktub ünvanladı. Bu barədə ABŞ prezidenti özü məlumat verib - martın 4-də Konqres üzvləri qarşısındakı çıxışında Tramp Ukraynanın torpaq metalları üzrə razılaşdırılmış, sonradan isə dayandırılmış sazişin imzalanmasına qayıtmaq istədiyini bəyan edib. Tramp Ukrayna prezidentindən vacib məktub aldığını bildirib. Tramp vurğulayıb ki, Ukrayna xammal və təhlükəsizlik sazişini istənilən vaxt imzalamağa hazırdır.

**Zelenski yazır...**

Qeyd edək ki, Oval Kabinetdəki son gərginlik mineral ehtiyatlarla bağlı müqavilədən daha çox Ukrayna ilə Rusiya arasındakı müharibənin sonlandırılmasından qaynaqlanmışdı. Tramp dolayısı ilə bu müharibənin "əsas sponsoru" sayılan ABŞ-a sərf etmədiyini açıq şəkildə ortaya qoydu - Zelenskini isə emosiyalara qapılaraq fərqli ünvanların dəstəyinə inanmamağa çağırdı. Amma Ukrayna prezidenti Trampın "məsləhətinə" qulaq asmayaraq üzünü Avropaya tutdu. Nəticədə Avropanın da vədlərdən qaçması Kiyevi çıxılmaz vəziyyətə saldı. Artıq Kiyev Vaşinqtonun bütün fikirlərinə nəinki hörmət etməyə, hətta onu müzakirəsiz yerinə yetirməyə hazır olduğunu deyir. Təsadüfi deyil ki, Tramp Zelenskinin məktubu barədə danışarkən bildirib ki, rəsmi Kiyev müharibəni dayandırmaq üçün Rusiya ilə danışıqlara hazır olduğunu təsdiqləyir. "Məktubda bildirilir ki, Ukrayna davamlı sülhə nail olmaq üçün mümkün qədər tez danışıqlar masasına oturmağa hazırdır", - Tramp bildirib. Onun sözlərinə görə, eyni zamanda, Rusiyadan ölkə hökumətinin sülhə hazır olduğuna dair "güclü siqnallar" var.

**Geri qayıtmaq istəyir...**

Zelenski isə gec də olsa situasiyanı soyuq başla təhlil etməyə başlayıb. Müharibə emosiyasını bir kənara qoymalı olduğunu anlayan Ukrayna prezidenti ətrafına ABŞ-ın onlara yardımı dayandırıb-dayandırmaması ilə bağlı rəsmi məlumat almağı tapşırıb - bunu Ukrayna prezidenti Kiyevdən videoçıxışında deyib. "Bu gün çoxlarının yalnız bir sualı var - Amerikanın köməyi ilə bundan sonra nə baş verəcək. Mən Ukraynanın müdafiə nazirinə, kəşfiyyat orqanlarımızın rəhbərlərinə, diplomatlara ABŞ-dakı həmkarları ilə əlaqə saxlamağı və rəsmi məlumat əldə etməyi tapşırdım. İnsanlar spekulyasiya etməməlidir. Ukrayna və Amerika substantiv dialoqa, bir-birinə qarşı aydın mövqeyə layiqdirlər", - Zelenski bildirib. Ukrayna Prezidenti deyir ki, o, Trampla yeni danışıqlar aparmaq istəyir.



**Artıq hər şeyi düzəltməyin vaxtıdır**

Maraqlıdır ki, Kiyev də atəşkəs üçün plan hazırlayıb - güman edilir ki, növbəti görüşdə bu plan Trampa təqdim olunacaq. ABŞ Prezidenti tərəfindən necə qarşılanacağı bilinməyən plan haqqında danışan Zelenski Ukraynanın davamlı sülhün yaxınlaşması üçün mümkün qədər tez danışıqlar masasına oturmağa hazır olduğunu deyib. "Heç kim ukraynalılardan çox sülh istəmir. Mən və komandam prezident Trampın güclü rəhbərliyi altında davamlı sülhə nail olmaq üçün işləməyə hazırıq", - Zelenski əlavə edib.

O, fevralın 28-də Ağ Evdə keçirilən danışıqların "gözlənildiyi kimi getmədiyini" etiraf edib. "Təəssüf ki, belə oldu. Artıq hər şeyi düzəltməyin vaxtıdır. Biz gələcək əməkdaşlıq və ünsiyyətin konstruktiv olmasını istəyirik", - Zelenski bildirib: "Mineral ehtiyatlar və təhlükəsizlik sazişinə gəlincə, Ukrayna onu istənilən vaxt və istənilən əlverişli formatda imzalamağa hazırdır. Biz bu sazişi daha böyük təhlükəsizlik və etibarlı təhlükəsizlik təminatlarına doğru addım kimi görürük və onun səmərəli işləyəcəyinə səmimi şəkildə ümid edirəm", - deyə o qeyd edib.

**"Sülh planı", yoxsa Avropanın arzuları?**

Trampa təqdim olunacaq sülh planına gəlincə isə, bu, mərhələli həll yolu kimi göstərilir: "Birinci mərhələ məhbusların azad edilməsi, hava hücumlarının dayandırılması kimi formalaşdırıla bilər. Bu mərhələdə raketlərə, uzaqmənzilli pilotsuz uçuş aparatlarına, enerji və digər mülki infrastrukturların bombalanmasına qadağa qoyulmalıdır. Bununla paralel olaraq isə dənizdə də atəşkəs haqda razılıq verilir. Bu, qarşıdakı mərhələ üçün razılaşmanın təməli sayıla bilər. Biz Birləşmiş Ştatlarla birlikdə güclü yekun razılaşma əldə edə bilərik".

Maraqlıdır ki, Ukrayna prezidentinin bu təklifləri ümumilikdə Fransanın təklif etdiyi atəşkəs planı ilə uyğunluq təşkil edir - Fransanın xarici işlər naziri Jan-Noel Barrot da "havada, dənizdə və enerji infrastrukturları ilə bağlı belə bir atəşkəs bizə Vladimir Putinin vicdanlı davranmağa hazır olub-olmadığını müəyyən etməyə imkan verəcək" deyə bildirmişdi. Təsadüf sayıla bilməz ki, Makron da ukraynalı həmkarının ABŞ ilə danışıqları bərpa etməyə hazır olduğunu alqışlayıb, Fransanın "Le Monde" qəzeti yazır ki, martın əvvəlində Makron və Böyük Britaniyanın Baş naziri Kir Starmer Ukraynada atəşkəs planı irəli sürmüşdülər.

**Bir "gedişə" mat - Tramp Aİ-yə "yerini" göstərdi...**

Görünən isə budur ki, Trampın Ukrayna prezidenti üzərindən oynadığı oyun öz bəhrəsini verdi - Aİ ABŞ-dan kənar tənzimlənmənin mümkünsüzlüyünü etiraf etdi. Bu fakt daha çox Vaşinqtqon üçün əhəmiyyət daşıyırdı:

- Ağ Ev yeni nizamda Avropaya özünün heç də "bərabərhüquqlu müttəfiqi" olmadığını mədəni şəkildə başa saldı - izah etdi ki, "köhnə qitə" artıq ABŞ-ın "yedəyinə" çevrilib;

- Aİ daxilindəki nüfuz savaşı səngidi - qurumda önə çıxmaq uğrunda gedən mübarizənin mənasızlığı ortaya çıxdı. Nəticə etibarı ilə, masa arxasında Aİ-nin olmaması Avropanın qlobal aktor kimi qəbul edilmədiyini (ən azından Rusiya və ABŞ üçün) sübuta yetirdi;

- ABŞ məsələlərə heç də "Qərb maraqları" müstəvisində deyil, "ABŞ mənafeyi" müstəvisində yanaşdığını bir daha ortaya qoydu. Aİ-nin Ukraynanın "başını sığallayaraq" "mineral müqavilədən" pay ummaq arzusunu gözündə qoydu. Tramp bir daha göstərdi ki, qarşıdakı dövrdə onun üçün əsas məqsəd ölkəsinin iqtisadi gəlirləridir.

Beləliklə, Zelenskinin Oval Kabinetə ikinci mümkün qayıdışı ölkəsini hansı məcraya sürükləyəcəyi barədə düşünməyə dəyər. Tramp isə son addımı ilə həm Kiyevi, həm Aİ-ni mat vəziyyətinə saldı...

*P.İSMAYILOV*

# Trampdan Aİ-yə mesaj...

## Rusiya neft və qazına Ukraynanın müdafiəsindən daha çox pul xərcləyiblər



Ağ Evdən "əli-boş" dönən Ukrayna prezidenti Zelenski Londona üz tutmaqla apardığı müharibədə "alternativlərinin" olduğunu sübut etməyə çalışır. Hətta Aİ-nin Ukraynaya söz verdiyi yardımın məbləği belə bu yardımın "epizodik" xarakter daşıyacağını deməyə əsas verir. Aİ-nin Ukraynaya əsgəri yardım edəcəyi gözlənilmir və dəstək yalnız "əskinaslarla" müşayiət edilə bilər. Məbləğin azlığı isə diqqəti cəlb edib...

Belə ki, ABŞ prezidenti Donald Tramp Avropa ölkələrini Ukraynanın müdafiəsinə kifayət qədər vəsait ayırmamaqda və əvəzində Rusiya enerjisinə daha çox pul xərcləməkdə ittiham edib. "Avropa Rusiya neft və qazına Ukraynanın müdafiəsindən daha çox pul xərcləyib". Trampın öz sosial media hesabında yazdığı bu açıqlaması Enerji və Təmiz Hava Tədqiqatları Mərkəzinin (CREA) ötən həftə dərc etdiyi hesabatına əsaslanır. Hesabata görə, Avropa İttifaqı ölkələri 2024-cü ilin üçüncü ilində Rusiyadan 21,9 milyard avro dəyərində fosil yanacaq alıb. Halbuki Avropa eyni dövrdə Ukraynaya cəmi 18,7 milyard avro maliyyə yardımı ayırıb. Qeyd edək ki, Trampın bu açıqlaması Qərb ölkələrinin Ukraynaya dəstəyi və Rusiyaya qarşı tətbiq edilən sanksiyalar fonunda Avropanın enerji siyasətinə dair yeni müzakirələrə səbəb olub.

**Aİ rəsmiləri təsdiqləyir: qaz tədarükü bütün idxalın 15 faizini təşkil edib...**

Əslində rəqəmlərə diqqət yetirəndə Trampın müəyyən mənada haqlı olduğunu görmək mümkündür. Belə ki, xarici mətbuatın yazdığına görə, 2022-ci ildən bəri Avropa İttifaqı (Aİ) ölkələrinin Rusiyadan qaz idxalı artma-azalma temp ilə dəyişib. Məsələn, 2023-cü ildə Aİ Rusiyadan 29 milyard avro dəyərində neft və qaz idxal edib. Düzdür, bu rəqəm əvvəlki illərə nisbətdə aşağıdır. Amma nəzər alınmalıdır ki, bu "alver" Qərbin iqtisadi sanksiyaları altında baş verib

2024-cü ilin yanvar-noyabr aylarında isə Rusiya Aİ-yə qaz tədarükünü 25 faiz artıraraq 49,6 milyard kubmetrə çatdırıb. Bu artım əsasən boru kəməri vasitəsilə tədarükün 26 faiz artması ilə əlaqədardır. Mayeləşdirilmiş təbii qazın (MTQ) tədarükü də 18,2 faiz artaraq 19,3 milyard kubmetr olub. Nəticədə, Rusiyanın Aİ-nin ümumi qaz idxalındakı payı 15 faizə yüksəlib. Bu rəqəmlər Aİ rəsmiləri tərəfindən də təsdiqlənir. Belə ki, Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simson Aİ Şurasının energetika nazirləri səviyyəsində keçirilən iclasından sonra mətbuat konfransında deyib. O bildirib ki, ötən ilin sonunda Rusiyadan qaz tədarükü Aİ-nin bütün qaz idxalının 15 faizini, bir il əvvəl isə 22 faizini təşkil edib.

Qeyd edək ki, 2025-ci ilin yanvar ayında Aİ-nin 5 ölkəsi - Fransa, Macarıstan, Slovakiya, Belçika və İspaniya Rusiyadan ümumilikdə 1,2 milyard avro dəyərində neft və qaz idxal edib. Fransa bu dövrdə Rusiyadan 377 milyon avro dəyərində MTQ idxal edərək Aİ-də ən böyük alıcı olub.

**Bəzi Avropa şirkətləri Rusiyadakı fəaliyyətini davam etdirib...**

Bu rəqəmlərə ayrı-ayrı şirkətlərin misalında da baxmaq olar. Qeyd edək ki, Ukrayna müharibəsi başlayandan sonra bir çox Avropa neft və qaz şirkəti Rusiyadakı fəaliyyətlərini dayandırsa da, bəzi şirkətlər əlaqələrini davam etdirdi. Məsələn, Avstriyanın OMV şirkəti müharibədən sonra da Rusiyadan neft və qaz tədarükünü davam etdirib. Bundan əlavə, İtaliyanın "Eni" şirkəti də Rusiya ilə enerji sahəsində əməkdaşlığını tamamilə dayandırmadı.

2022-ci ilin fevralından sonra bu gün özünü Kiyevin "himayədarı" kimi qələmə verən Qərb ölkələrinin şirkətləri də "boş dayanmayıb". Məsələn, Almaniyanın aparıcı neft və qaz şirkəti olan "Wintershall Dea" müharibədən sonra da Rusiyadakı fəaliyyətini davam etdirib. Şirkət, Rusiyadakı layihələrində iştirakını qoruyub saxlayıb. Almaniyanın başqa bir enerji şirkəti "Uniper" də Rusiyadan təbii qaz tədarükünü davam etdirib və "Şimal Axını 2" layihəsində iştirak edib.

Fransadan isə əsasən böyük enerji şirkəti "TotalEnergies" müharibə dövründə Rusiyadakı bəzi layihələrindən çıxdığını bəyan etsə də, bəzi digər layihələrdə iştirakını davam etdirib. Şirkət, xüsusilə, Rusiya LNG (mayeləşdirilmiş təbii qaz) layihələrində iştirakını saxlayıb. Fransanın başqa enerji şirkəti "Engie" də Rusiyadan təbii qaz tədarükünü davam etdirib və "Şimal Axını 2" layihəsində maliyyə iştirakını qoruyub.

**Neft-qaz sahəsindən kənar fəaliyyət...**

Əslində Qərbin müharibə dövründə Moskva ilə münasibətlərində yalnız neft-qaz sahəsi önə çıxmayıb. Məsələn, Avstriyanın "Raiffeisen Bank International" bankı müharibədən sonra Rusiyada qalmağa davam edib və bu qərar nəticəsində səhmlərinin dəyəri 40 faiz azalıb. Bununla belə, 2022-ci ildə bankın Rusiyadakı əməliyyatlarının həcmi 2,2 milyard avroya qədər artaraq ümumi mənfəətin 60 faizin təşkil edib.

Almaniyanın mühəndislik şirkəti olan "Bosch", Fransanın "Accor" otel şəbəkəsi və "Clarins" kimi kosmetik istehsalçısı şirkətləri də Rusiyada fəaliyyətlərini davam etdiriblər.

*SADİQ*

# Aİ Ukraynadan əlini çəkir?

**Artıq Avropa İttifaqı da Ukraynanı meydanda yalnız buraxır. Ukraynanın Aİ-dən gözləntiləri boşa çıxır - bu günə kimi Kiyevə ümid verən, onu müasir hücum xarakterli silahlarla təchiz edəcəyinə, həm də ona daha əlavə maliyyə vəsaiti ayıracağına əmin edən "köhnə qitə" öz sözündən döndü. Belə ki, Avropa İttifaqı Ukraynaya 20 milyard avro məbləğində yeni hərbi yardım paketinin hazırlanmasını dayandırmaq qərarına gəlib.**

## Səbəbkar Macarıstan və Sloveniyadır?

Xatırladaq ki, bir neçə gün öncə Tramp administrasiyası Ukraynaya hərbi-maliyyə yardımını tamamilə dayandırdığını bəyan etmişdi. Təbii ki, Tramp belə bir addım atmağa Ağ Evdə Zelenski ilə yaşanan gərgin mübahisədən sonra qərar verib. Tramp Zelenski ilə normal dialoqun yalnız Kiyevin Rusiya ilə danışıqlar masası arxasına oturmağa hazır olduqdan sonra mümkün olduğunu bildirib.

Bu arada martın 2-də Londonda keçirilən sammitdə Aİ-nin və Avropa ölkələrinin liderləri, eləcə də Kanada və NATO-nun rəhbəri Ukraynanı yalnız qoymayacaqlarını və sona qədər Kiyevin arxasında olacaqlarını bəyan etdilər. Belə demək mümkünsə, Zelenskiyə mübarizəni davam etdirmək üçün ümid verdilər. Amma Aİ-nin son qərarından görünür ki, dünən Ukraynaya söz verənlər, bu gün öz sözündən dönürlər. Görəsən, Aİ-ni öz vədindən dönməyə nə vadar edib? Qərb KİV-inin məlumatında qeyd olunur ki, Aİ Şurasında Ukraynaya növbəti hərbi yardım paketi ilə bağlı qızğın müzakirələr aparılan zaman Macarıstan və Sloveniya bu paketin hazırlanmasına qarşı çıxıblar. Hər iki ölkə paketə veto qoyublar. Doğrudur, Avropa İttifaqının qanunvericiliyinə görə, Aİ Şurasında istər daxili, istərsə də xarici siyasətlə bağlı məsələlərin müzakirəsində bütün üzv dövlətlərin rəyi nəzərə alınır və qərarlar konsensus çərçivəsində qəbul olunur - əgər bir üzv ölkə hər hansı qərara veto qoyursa, o qərar icra olunmur.

Amma maraqlısı budur ki, Rusiya ilə Ukrayna arasında müharibə başladıqdan sonra, hətta müharibədən əvvəl Aİ Şurasında Rusiyaya qarşı sanksiya paketləri müzakirə olunan zaman Macarıstan bu paketlərin bir çoxuna veto qoymuşdu. Budapeştin etirazlarına baxmayaraq, bu sanksiya paketləri qüvvəyə mindi. Necə olur ki, vaxtilə Macarıstanın mövqeyini nəzərə almayan Brüssel və Aİ-nin üzv ölkələri indi onun veto hüququna hörmət edirlər. Ekspertlərin fikrincə, Aİ-nin bu addımı onun Ukraynada müharibənin tez bir zamanda başa çatmasında maraqlı olmasından irəli gəlir və yaxın zamanda bunun reallaşması üçün müxtəlif bəhanələrə əl atacağı istisna deyil.

Məsələ ilə bağlı politoloq İlyas Hüseynov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, ABŞ-dan sonra Avropa İttifaqı da Ukraynaya bütün dəstəyi dayandıracaq: "Ağ Evdə Tramp ilə Zelenski arasında son gərgin görüşdən sonra Qərb yarımkürəsində Ukraynaya münasibətin kəskin dəyişdiyini görürük. Artıq ABŞ Ukraynaya hərbi-siyasi və iqtisadi yardımları dayandırdı. Hətta Ukraynaya kəşfiyyat məlumatlarının ötürülməsinə də qadağa qoyulub. Sözsüz ki, bu da digər Qərb dairələrinə təsirsiz ötüşməyə bilməzdi. Aİ və Avropa ölkələri aydın şəkildə başa düşürlər ki, daha əvvəlki vəziyyət olmayacaq və Ukraynadakı proseslər onların əleyhinə cərəyan edir. Nəticə etibarı ilə Aİ Ukraynaya 20 milyard avro dəyərində hərbi yardım paketinin hazırlanmasını dayandırmaq qərarına gəldi. Bu onu deməyə əsas verir ki, Aİdə Ukraynanı Rusiya ilə müharibə meydanında yalnız buraxmaq niyyətindədir".



## Aİ son qərarı ABŞ-ın təzyiqi altında verib

"Şübhəsiz ki, Avropa İttifaqının liderləri ABŞ-ın ciddi təzyiqləri ilə üzləşiblər. Bu, onları çıxılmaz vəziyyətə salıb. Onların bu qərarında Vaşinqtonun rolu danılmazdır. Bu, ABŞ-ın Avropa üzərində təsir rıçaqlarının güclü olduğunu, eləcə də Aİ-nin ABŞ-dan asılılığını göstərir. Aİ Ukrayna ilə bağlı bundan sonrakı qərarlarında da ABŞ-ın mövqeyini nəzərə almaq məcburiyyətində olacaq", - deyə İ.Hüseynov vurğulayıb.

## Zelenski çıxılmaz vəziyyətdə qalıb

Politoloq bildirib ki, Ukraynada çox ağır və acınacaqlı durum hökm sürür: "Qərb analitiklərinin fikirlərinə görə, Ukraynada müharibənin sona çatması üçün rəsmi Kiyevin ərazi güzəştinə getməsindən başqa çıxış yolu qalmayacaq. Zelenski daha böyük ərazi itkiləri ilə üzləşməmək üçün Moskva ilə atəşkəs sazişi imzalamaq məcburiyyətində qalacaq. Düzdür, bu hal ölkə daxilində Zelenski hakimiyyətini ciddi müqavimətlə üz-üzə qoyacaq. Amma reallıq budur ki, müharibədə vəziyyət Ukrayna üçün daha mənfi ssenari üzrə inkişaf edir".

*Yunis ABDULLAYEV*

# Qrenlandiya müəmması

## Müstəqillik, yoxsa...

Hakimiyyətə gəldiyi gündən etibarən həm açıqlamaları, həm də qərarları ilə gündəmi "zəbt etmiş" ABŞ Prezidenti Donald Trampın gələcək prioritetləri də böyük maraq kəsb edir. Xüsusilə, Trampın Panama, Kanada və Qrenlandiya ilə bağlı "planları" dünya mediasında diqqətlə izlənilir. Tramp son çıxışında da auditoriyanı özünə cəlb edə bilib - belə ki, onun Konqresdəki son çıxışı mühüm detallarla ilə seçilib. Ölkəsinin daxili və xarici siyasəti haqda geniş məlumat verən Tramp bildirib ki, ölkəsinin hərbi potensialı inkişaf etdiriləcək - ABŞ hökuməti yeni raketdən müdafiə sistemləri qurmağı planlaşdırılır. O, Ali Baş Komandan kimi Konqresdən ABŞ-da hazırlanmış ən qabaqcıl raketdən müdafiə qalxanı olan "Qızıl Qübbə"ni maliyyələşdirməsini xahiş edib.

Vurğulandığı kimi, Trampın xarici siyasət hədəfləri dəyişməyib - bu, Prezidentin Konqresdəki çıxışında da təsdiqlənib. Belə ki, o, nitqində Panama kanalı və Qrenlandiya haqqında da danışıb. ABŞ prezidenti Panama kanalına nəzarəti bərpa etmək niyyətini açıqlayıb. O deyib ki, bu işə məsul şəxs Dövlət katibi Marko Rubio olacaq.

### Trampın fikri qətidir...

ABŞ Prezidentinin Qrenlandiya "arzusu" isə sönmiş kimi görünmür. Çıxışında Tramp Qrenlandiya xalqının ABŞ-a qoşulma qərarını bəyənəcəyini bildirib. Onun sözlərinə görə, ölkəyə milli və hətta beynəlxalq təhlükəsizliyi təmin etmək üçün bu lazımdır.

Xatırladaq ki, ötən ilin dekabrında Tramp Qrenlandiyanın ABŞ-ın nəzarətinə keçməsinin milli təhlükəsizlik və azadlıq üçün zəruri olduğunu bildirmişdi. O, Danimarkanın bu əraziyə nəzarət etmək üçün kifayət qədər resurslara sahib olmadığını vurğulamışdı. Bu il yanvarın 7-də isə Tramp Qrenlandiyanın ABŞ-a birləşməsi halında yerli sakinlərin bundan faydalanacağını vurğulamışdı. Yanvarın 21-də Tramp Danimarkanı Qrenlandiya məsələsinə görə ticarət müharibəsi ilə hədələmişdi.

### Danimarka dialoqa hazırdır, amma...

Danimarkanın Baş naziri Mette Frederiksen isə açıqlamasında Trampın iqtisadi təzyiq vasitəsilə Qrenlandiyaya nəzarət etmək niyyətindən vaz keçmədiyini deyib. O, ötən ay ABŞ Dövlət katibi Marko Rubionun Prezident Trampın adanı almaqda maraqlı olmasını "zarafat olmadığı" ilə bağlı səsləndirdiyi fikrə cavab olaraq bildirib ki, Qrenlandiya satılmır. "Qrenlandiya bizim ərazimizin bir hissəsidir və satılmır", - deyə Frederiksen əlavə etmişdi. O, əməkdaşlığı istisna etməyib - Baş nazir Arktikanın strateji əhəmiyyətinin artması ilə bağlı ABŞ-ın mövqeyi ilə razılaşır. "Əgər söhbət regionumuzun təhlükəsizliyindən gedirsə, biz dialoqa hazırıq", - Baş nazir əlavə edib.



### Qrenlandiyada referendum keçiriləcək?

Qeyd edək ki, Trampın Qrenlandiyanı satın almaq istəyi Danimarkanı pis vəziyyətə salıb - bir tərəfdən rəsmi Vaşinqtona qarşı müqavimət göstərməli olan Kopenhagen, digər tərəfdən adadakı siyasi qüvvələrə "cavab vermək" məcburiyyətindədir. Belə ki, vətənlərinin satış predmeti olması ilə razılaşmayan adanın Qrenlandiyanın Siumut ("İrəli") partiyası müstəqillik üçün referendum keçirmək niyyətini açıqlayıb. Hətta səsvermənin martın 11-də keçiriləcək ümumi seçkilərdən sonra baş tuta bilmə ehtimalı da var. Partiyanın sözçüsü Doris Jensen bildirib ki, partiya Qrenlandiyaya tam müstəqilliklə bağlı danışıqlar aparmaq hüququ verən 2009-cu ildə qəbul edilmiş qanundan istifadə edəcək. Qeyd olunur ki, Qrenlandiyanın bütün parlament partiyaları (5 partiya) adanın ABŞ-a qoşulmasına qarşıdır. "Verian" sosioloqları tərəfindən aparılan sorğu göstərib ki, qrenlandiyalıların 85 faizi hadisələrin belə inkişafını istəmir, 45 faizi isə ABŞ Prezidenti Donald Trampın adaya marağını təhlükə kimi qəbul edir.

### Siyasi qüvvələr müstəqillik mübarizəsinə başlayır...

Xatırladaq ki, 1977-ci ildə qurulan partiya Qrenlandiyanın ən qədim siyasi təşkilatı sayılır. Qrenland dilində "İrəli" mənasını verən siyasi qüvvə sosial-demokratik və sol mərkəzçi ideologiyaya sahibdir, Qrenlandiyanın Danimarkadan muxtariyyətini dəstəkləyir. Partiya, 1979-cu ildə Qrenlandiyanın muxtariyyət əldə etməsindən sonra, uzun müddət ölkənin siyasi səhnəsində hakim mövqedə olub. Müxtəlif dövrlərdə Siumut liderləri Qrenlandiyanın baş naziri vəzifəsini icra ediblər. Partiya, Qrenlandiyanın iqtisadi inkişafı, təhsil və səhiyyə sahələrində islahatlar aparmaq məqsədi güdür. Siumut partiyasının nümayəndələri Qrenlandiya parlamentindəki 31 yerdən 10-na sahibdirlər, İnuit Ataqatigiit partiyasının üzvləri ilə yanaşı, hər iki siyasi qrup adanın müstəqilliyi ideyasını dəstəkləyirlər. Üçüncü böyük partiya olan Naleraq (parlamentdə beş nəfərdən ibarət fraksiya) da Danimarka ilə əlaqələri kəsmək arzusunu ifadə edib.

***PƏRVİZ***

# Bir nəslin xəstəlik tarixçəsi

## Emil Zolyanın "Ruqon-Makkarlar" silsiləsindən son romanı "Doktor Paskal" haqqında

Təqribən iyirmi ilə yazılmış iyirmi cildlik "Ruqon-Makkarlar" roman silsiləsi, ailə-nəsil dastanı ədəbiyyatda naturalizmin müntəxəbatı, manifesti sayıla bilər. Ancaq istər Emil Zolya, istərsə də onun təmsil elədiyi naturalizm cərəyanı söz meydanında qəfil, yoxdan peyda olmamışdı, bu yazıçının ustadları, onun tutduğu işin müqəddiməsi vardı. Ədəbiyyatda Zolyanın sələfləri Stendal, Balzak, Hüqo, Flober idisə, fəlsəfi-estetik dünyagörüşünün formalaşmasında ən böyük rolu pozitivist filosoflar, ilk növbədə bu cərəyanın (əslində, ümumən Avropa sosiologiya elminin) banisi Ogüst Kont, pozitivizmin bayraqdarlarından olan İppolit Ten oynamışdı.

On doqquzuncu əsrin birinci yarısında yaranmış pozitivizm cərəyanı əsrin ikinci yarısında böyük populyarlıq qazanmışdı, Kontun ardınca bu fəlsəfi məktəbin Con Stüart Mill, Herbert Spenser kimi müəllimləri də dövrün bir çox düşünən başlarının qibləsinə çevrilmişdi. Rasional fikrin, elmin, texnikanın, sənayenin inkişafıyla paralel meydana gəlmiş pozitivizm əvvəlki fəlsəfi axınların çoxunu, ələlxüsus spekulyativ fəlsəfəni, metafizik, idealist cərəyanları, başqa sözlə, həyat reallıqlarından doğmayan, ayrı-ayrı filosofların beynində, təxəyyülündə yaranan nəzəriyyələri inkar eləyirdi. Rasional təfəkkürün senzurasından keçməyən xəyali həqiqətlər, fövqəltəbii ideallar pozitivizmin bayraqdarlarına yad-yabançı gəlirdi. Dərindən götürəndə pozitivizm yeni bir fəlsəfi sistem də yox, fəlsəfənin elmin budaqlarına calanması, yaxud elmi metodların fəlsəfi müstəviyə transformasiya olunmuş versiyası idi. Obrazlı desək, fəlsəfə donu geyindirilmiş elm.

***

İctimai fikirlə, fəlsəfəylə çiyin-çiyinə iki yüz il bundan qabaq ədəbiyyatda da pozitivist yanaşma hegemonluq qazanmağa başlamışdı. Hələ romantizm cərəyanının nümayəndəsi sayılan Stendal belə bir nəzəri metod irəli sürmüşdü ki, yazıçı hadisələrə, xarakterlərə tədqiqatçı alim nəzəriylə baxmalı, onları araşdırıb təhlil süzgəcindən keçirməlidir. Yaradıcılığı boyu romantizm havasının məstliyindən tam ayılmamış Balzak, Hüqo, Flober kimi qüdrətli söz ustaları da (sonuncu hətta özünü "gecikmiş romantik" sayırdı) pozitivizmin prinsiplərini rəhbər tutmaqla misilsiz realist mətnlər yaratmış, yeni bir ədəbi məktəbin təməlini qoymuşdular. Onların əsərlərində romantik səhnələrlə birgə naturalist məqamlar da yetərincədir. Realizmdən sonra meydana gəlmiş naturalizm cərəyanı sələfindən çox seçilmirdi, belə demək olarsa, naturalizm - üzündən tül həyə pərdəsini götürmüş realizm idi. Zolya bədii-analitik mətnlər yaratmış böyük qardaşlarından bir az da uzağa gedib, ədəbi leksikona eksperimental roman anlayışını gətirmişdi, yəni yazıçı öz yaradıcılıq laboratoriyasında hadisələri, personajları nəinki analizdən keçirməli, hətta obrazları ən müxtəlif ekstremal situasiyalara salıb onlardakı dəyişikliyi müşahidə eləməklə eksperimentlər aparmalıdır. Bu proses boyunca o, gördüklərini dəqiqliklə qeydə almalı, hadisələrə müdaxilədən çəkinməli, personajları zor gücünə istədiyi səmtə yönəltməməlidir. Bir sözlə, müəllif obrazları (həyatı) yox, obrazlar (həyat) müəllifi arxasınca sürüməlidir. Romantizmin, qismən də realizmin tendensiyalılığına qarşı qoyulan belə soyuq, tərəfsiz üslub obyektiv yazı manerası sayılır. Bu metodu da o, elmdən - dövrünün böyük təbibi, endokrinologiyanın atası Klod Bernarın elmi-nəzəri təcrübələrindən əxz eləmişdi.

Ogüst Kont deyirdi ki, bəşər təfəkkürü indiyədək üç mərhələdən keçib: bunlardan birincisi dini-mifoloji, ikincisi metafizik, üçüncüsü-sonuncusu da elmi-pozitivist dönəmdir. Onun təliminə görə, birinci iki dönəm artıq geridə qalmış mərhələlərdir, insanlıq indi yalnız elmin gücünə güvənib sabaha addımlaya bilər. Elmi-pozitivist düşüncə proqressiv, dini, metafizik şüur reqressivdir. İppolit Ten isə bu fikirdəydi ki, insanı formalaşdıran üç başlıca amil var: irq (irsiyyət, genetika), mühit (məkan), bir də tarixi məqam, şərait (zaman). Yəni tutalım, Napoleon Bonapart bir ərəb, yainki yapon kimi doğulsaydı, Fransada yox, məsələn, İtaliya ərazisində yaşasaydı, yaxud elə həmin Korsikada on il tez, ya da on il gec dünyaya gəlsəydi, tamam başqa bir taleyin yiyəsi olardı. Əslində, "taleyin yiyəsi" ifadəsi də burada yerinə düşmür, çünki bunca determinist yanaşma insana azadlıq, seçim, özünə yiyələnmək yeri qoymur, insanı taleyinin yox, taleyini insanın yiyəsinə çevirir. Marksizm qarışıq bütün böyük sosioloji nəzəriyyələr (o cümlədən iyirminci əsrin birinci yarısında dünyada geniş yayılmış neopozitivizm cərəyanı) fərdə fələkdən payına düşmüş qismətin məhsulu, determinizm zəncirinə vurulmuş kölətək baxır, özündən asılı olmayan faktorların yedəyində sürünən fərdin azadlığına bilmərrə meydan vermir.

Elmin taxta çıxarıldığı yeni tarixin mövhumatı, xurafatı da budur. Onun keçmiş əyyamların cəhalətindən prinsipial fərqi yoxdur.

***

Yeri gəlmişkən deyim ki, populyar yəhudi müəllifi Hararinin son illər bütün dünyaya səs salmış, bestsellerə çevrilmiş kitabları da insanın azad iradəsinə parodiya kimi görünən belə neoxurafatçı neocəhalət məqamlarıyla doludur. Azad ruhun həqiqətləri yoxdan var eləyən bəhrələrinə beyində, sinirdə, qanda gedən kimyəvi reaksiyaların təsadüfi nəticələri kimi baxmaq ruhla bədənin, tanrıyla şeytanın sərhədlərini görməmək, duymamaq, qanmamaqdır. Çox güman, "bədən"dən fərqli olaraq "ruh", "tanrı", "şeytan" anlayışları çoxuna köhnəliyin qalığı, geridəqalmışlıq kimi görsənəcək, ancaq təklif eləyərdim ki, İlon Maskı baş kahininə çevirmiş yeni kapital krallığının, çağdaş texnologiyanın bir az da qaraltdığı zülmət səltənətinin aciz, məzlum rəiyyəti adına ruh dediyimiz mənəvi dəyər boxçasını vaxtı keçmiş pulların çürüdüyü məzara gömməyə hələ tələsməsin. Tanrı öz sözünü hələ deyəcək. Yeni minilliyin əvvəlindən baş götürmüş köhnə-yeni mənəvi böhranın artıq tanınmaz hala saldığı texnoloji dünyamızın fəlakətli duruşu indi bu müdaxiləyə əşhədü-ehtiyac olduğunu bizə bir daha xatırladır.

Zolya da amansız deterministdir. O da qəzavü-qədərə boyun əyən fatalistdir, sadəcə onunku dini fatalizm yox, bioloji fatalizmdir. Onun allahı metafizik tanrı yox, fiziki aləm, ana təbiət, Natura özüdür. Zolyadan ötrü Adəm övladı sinirlərindən, qanından asılı canlı (ancaq ruhsuz!) mexanizmdir, onun bioqrafiyası isə bioloji özəlliklərinin məcmusu, xəstəlik tarixçəsidir. Zolyanın insanı hər cür dini, romantik hissiyyatdan, müqəddəslik duyğusundan, idealist coşqudan məhrumdur (beləsi varsa da, o, həyatın, Naturanın əleyhinə çıxan tipajdır), ondan ötrü ürək sadəcə qanı damarlara qovan nasosdur, xristianların Tanrıyla ünsiyyət vasitəsi kimi baxdığı vicdan əzabı isə vur-tut reqressiv fizioloji hal, sinir pozğunluğudur. Məhəbbətə gəlincə bu, iki orqanizmin bir-birinə duyduğu tələbatın adıdır, burada hansısa idealizmdən, romantikadan söhbət gedə bilməz. Heç bir iradə azadlığı da yoxdur, olan yalnız stoiklərin dünyanı fırladan qüvvə saydıqları Fatumdur, intəhası, bu tale çarxı insandan kənarda - yerin təkində, göyün dərinliyində yox, insan cisminin içində, nüvəsində hərlənir.

Fərdin azadlığını, fərdiyyətini əlindən hansı adla almağın elə bir fərqi yoxdur, hansı adla alınır alınsın, bunun adı istismar, köləlikdir. Dinin həqiqətin son instansiyası, məbədin yer üzündə Allahın yeganə institutu olduğunu vurğulamaqla elmin həyatı, kainatı tanımağın tək yolu, elmi təfəkkürün bəşər düşüncəsinin son mərtəbəsi, demokratiyanın, liberalizmin tarixi inkişafın son mərhələsi olduğunu, həqiqətə gedən cığırın yalnız universitetlərdən keçdiyini demək kimyəvi tərkibinə görə bir-birindən fərqlənməyən eyni növ cəhalətin nişanələridir. İnsan özündən min-min qat qüdrətli bir fövqəlgücün köləsidirsə, nə fərqi var o gücün adını qismət qoydun, ya təsadüf, tanrı qoydun, ya təbiət? Bunlar bir medalın iki üzüdür. İnsan ruhunun başlıca vəzifəsi, insan azadlığının mahiyyəti elə həmin o fatum, qismət, ya təsadüf dediyimiz mübhəm, məşum qüvvəyə qarşı savaşmaqdır. Lap bu yaxın günlərdə bəşəriyyət özgə bir məkanda yox, məhz çağdaş sivilizasiyanın qibləsi sayılan bəmbəyaz bir sarayda belə bir qeyri-bərabər, ədalətsiz, qapqaranlıq savaşın şahidi oldu. İblis həmişə məbəddən yola çıxır, dəccal müdam haqq elçisinin diliylə danışır, şeytan allah adamlarına divan tutanda onların tapındığı allahın pak həqiqətiylə silahlanır...

***

Yazıçının öz üslubunu, bədii-estetik prinsiplərini hansısa fikir cərəyanının, elmi metodun təsiri altında formalaşdırması onun yaradıcı şəkildə bəhrələndiyi müəllif, yaxud təlimlə eyni etik-fəlsəfi platformada durması demək deyil. Ona qalsa, gərək on doqquzuncu əsrin adını çəkdiyim-çəkmədiyim böyük realist romançıları hamılıqla pozitivizm fəlsəfi məktəbinin ardıcılı sayılaydılar, halbuki, məsələn, Balzakla Hüqonun, Floberlə Tolstoyun mənəvi-etik baxışları bir-birindən adi gözlə görünəcək qədər fərqlənir. Cek London Herbert Spenserdən də, Fridrix Nitsşedən də çox təsirlənmişdi, ancaq onun poetik-panteist yönümlü yaradıcı təfəkkürünü nə Spenserin pozitiv-realist düşüncəsi, nə də Nitsşenin mistik-idealist düşüncəsiylə eyniləşdirmək olar. Anri Berqsonun zaman konsepsiyasından bəhrələnsə də, Marsel Prust ustadı (eləcə də Hüqo, Dikkens, Dostoyevski, Tolstoy...) kimi təfəkkürün mistik qatına ucalmayıb (katolik yazıçı Fransua Moriak Prustun sənətkarlığını tərifləyən bir essesində təəssüflə vurğulayırdı ki, onun əsərində Allahdan əsər-əlamət yoxdur). Bütün modernist yazıçılartək öz yaradıcı metodunu formalaşdırmaqdan ötrü Ziqmund Freydin psixoanaliz, Karl Yunqun analitik psixologiya təlimindən yararlansa da, Herman Hessenin əsərləri ideya-məzmun baxımından Şərq dinifəlsəfi məktəblərinə, induizmə, buddizmə daha yaxındır; onun təxminən belə bir fikri də vardı ki, Freydlə Yunq məni uçurumdan adladan körpüdür, körpünü keçəndən sonra mən onu partladıram. Eyni qaynaqdan su içmiş başqa yazıçıların, məsələn, Ceyms Coysla Tomas Mannın kökündən fərqli düşüncə sahibi olduqları da təzə xəbər deyil.

Eynilə realizmin növbəti stadiyası saya biləcəyimiz naturalizm cərəyanının yaranmasına pozitivist fəlsəfənin təkan verdiyini əsas götürüb Emil Zolyanı həyata baxışına, fəlsəfi dünyagörüşünə görə pozitivizmin ardıcılları sırasına qoşmaq da, məncə, doğru deyil. Belə məsələlərdə bəzən Zolya özü də yanlışlığa yol verirdi; məsələn, bir məqaləsində o, Balzakı demokrat adlandırırdı, halbuki Balzak heç vaxt demokratiya, liberalizm əqidəsinə tapınmayıb, siyasi baxışlarına görə də konstitusiyalı monarxiya tərəfdarı olub. Eləcə də Zolya özü - insanın öz razılığı alınmadan ona ötürülmüş genlərdən (dolayısıyla öz qismətindən, təbiətindən, həyatın təsadüflərindən) asılı bir vəhşi olduğunu söyləyən düşüncə adamının rasional təfəkkürün, elmin, maarifin qüdrətinə tapınan pozitivizmin tərəfdarlarının optimizmini bölüşdüyünə necə inanasan? Bəşər nəslinin epopeyasını xəstəlik tarixçəsi kimi qələmə alan, eksperimental romanın üsullarıyla iyirmi iki il sərasər öz yaradıcı laboratoriyasında insanlar üzərində təcrübə aparan yazıçı hansı nikbin elmi-praqmatik nəticəyə gəlmişdi ki, bundan onun insan cəmiyyətinin gələcəyinə ümid bəslədiyi qənaətini hasil eləyəsən?

Əlbəttə, gerçək yazıçı bədii əsərdə açıq mətnlə mesaj, ya resept vermir, bununla belə onun yazdıqlarının alt qatına, simvolik laylarına varanda mesajını da, reseptini də oxumaq olur. Doğrudur, həyat gerçəkliyini bəzən əhəmiyyətsiz təfərrüatına, lazımsız detallarınacan bütün çılpaqlığıyla olduğu kimi qələmə almaq, heç bir zahiri bər-bəzəyə, cümləpərdazlığa, təşbehbazlığa, simvolizmə uymamaq naturalizmin başlıca tələbləri sırasındaydı, ancaq böyük istedadı belə çərçivələr arasına qapamaq mümkün deyil. Zolyanın əsərlərində bütün başqa böyük yazıçıların yaradıcılığında olan nə varsa, hamısı - parlaq obrazlar da, sarsıdıcı situasiyalar da, göz qamaşdıran simvollar da, tutarlı bədii təsvir vasitələri də bəs deyincə var.



**F.Uğurlu**

**davamı növbəti sayımızda**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




## Ramazan ayı: 6-cı gününün duası

**Allahummə la təxzulni fihi li-təərrüzi mə-siyətik. Və la təzribni bisiyati nəqimətik. Və zəhzihni fihi min mucibati səxətik. Bimənnikə və əyadikə ya muntəha rəğbətir-rağibin.**

***Tərcüməsi:***

**İlahi, bu gün sənə qarşı etdiyim günahlara görə məni rüsvay etmə. Məni intiqam taziyanələrinlə vurma. Bu gün sənin qəzəbinə səbəb olan işlərdən məni uzaq et. Bəxşiş və nemətlərinə and verirəm, ey şövqlü şəxslərin arzusunun müntəhası!**




# Gözlərimizi qoruyaq!

## Ümumdünya Qlaukoma ilə Mübarizə Günüdür

Məlumdur ki, xarici mühitdəki informasiyanı əsasən gözlərimizlə alırıq. Ona görə də görmənin aşağı düşməsinə və itirilməsinə gətirib çıxaran bəzi xəstəliklər insan həyatının dəyişməsinə və əmək qabiliyyətinin itməsinə səbəb olur. Bu xəstəliklər arasında qlaukomanı xüsusilə qeyd edə bilərik.

Xəstəliyə bütün yaş dövrlərində, əsasən də orta və yaşlı nəsil insanlarda rast gəlinir. Statistik göstəricilərə əsasən, yer üzündə yaşayan insanların 2-3 faizi qlaukomadan əziyyət çəkir. Lakin həmin insanların yalnız yarısının öz xəstəliyi haqda məlumatı var.

### "Qara su"...

Gözün xroniki proqressivləşən xəstəliyi olan Qlaukomaya el arasında "Qara su" xəstəliyi də deyirlər. Xəstəlik gözdaxili təzyiqin qalxması ilə müşayiət olunur, görmə sinirini zədələyir və görmənin geridönməz şəkildə aşağı düşməsinə və itməsinə səbəb olur.

Mövzu barədə "Yeni Azərbaycan"a danışan oftalmoloq Gündüz Abbasov bildirib ki, xəstəlik əvvəlcə simptomsuz başlasa da, vaxtında müalicəsi aparılmayanda görmə dairəsi tədricən daralır, getdikcə gözün nuru zəifləyir və korluğa aparıb çıxarır:

### Müalicəyə çətin tabe olur...

"Qlaukoma 60-dan artıq patologiya nəticəsində yaranır. Xəstəliyə bütün yaş dövrlərində rast gəlinsə də, daha çox 40 yaşdan yuxarı insanlar qlaukomadan əziyyət çəkir. Mürəkkəblik ondadır ki, qlaukoma yalnız yüksək dərəcədə inkişaf edəndən sonra üzə çıxır və müalicəyə çətin tabe olur. Beynəlxalq miqyasda Qlaukoma ilə Mübarizə Gününün qeyd olunması həm də xəstəliyin yaranması, risk amilləri, profilaktikası və diaqnozu barədə ictimaiyyətin maariflənməsinə xidmət edir.

Qlaukomanın vaxtında aparılan müalicəsi yalnız gözdaxili təzyiqi endirən damcıların tökülməsindən ibarətdir. Xəstəliyin daha ağır hallarında isə lazer cərrahiyyəsinə və ya operativ müdaxiləyə üstünlük verilir. Bütün hallarda müalicə forması xəstəliyin tipi, dərəcəsi və xəstənin yaşı nəzərə alınaraq aparılır. Müasir texnologiyalar müalicə prosesini maksimum dərəcədə təhlükəsiz və uğurla aparmağa imkan verir, hətta əksər hallarda onun müalicəsi üçün stasionar şəraitdə qalmaq tələb olunmur".

### Erkən diaqnoz vacibdir

Oftalmoloq qeyd edib ki, statistikaya görə, hazırda dünyada 80-90 milyon qlaukoma xəstəsi var: "Qlaukoma nəticəsində görməsini itirmiş gözün yenidən görməsini bərpa etmək, təəssüf ki, mümkün olmur. Buna görə də korluğa səbəb olan xəstəliklərin önündə gələn qlaukomaya erkən qoyulan diaqnoz mövcud görmənin qorunub saxlanması və zədələnməmiş sinir liflərinin yaşaması üçün çox önəmlidir. Bir sözlə, erkən diaqnoz insanı kor olmaqdan xilas edər. Müalicəsi mümkün olan xəstələrin korluğunu dərmanlarla və ya əməliyyatla əngəlləmək olar".

Qeyd edək ki, bu gün dünyanın bir sıra ölkələrində Ümumdünya Qlaukoma ilə Mübarizə Günü kimi qeyd olunur. Qlaukoma ilə Mübarizə Günü 2008-ci ildən Ümumdünya Qlaukoma Cəmiyyətləri və Ümumdünya Qlaukomalı Xəstələr Assosiasiyalarının təşəbbüsü ilə martın 6-da keçirilir.

***Yeganə BAYRAMOVA***

# Dişlərimizin qayğısına qalanlar...

## Beynəlxalq Stomatoloq Günüdür

Diş sağlamlığımızın qorunmasında stomatoloqların mühüm yeri var. Stomatologiya tibbin ən qədim sahələrindən biridir. Bu gün diş həkiminin müalicə kabinetinə getmədən sağlamlığımızı qorumaq mümkün deyil. Bəşəriyyətin yalnız kiçik bir hissəsi xəstə diş, xəstə diş əti, ağız boşluğu ilə əlaqədar problemlərdən yan keçir. Yer kürəsi əhalisinin böyük bir hissəsi ömründə ən azı bir dəfə də olsun nə vaxtsa stomatoloq kreslosunda oturaraq dişlərini müalicə etdirməyə məcbur olur.

Stomatoloqların öz peşələrində əhəmiyyətini yüksək qiymətləndirdiyimiz Beynəlxalq Stomatoloq və ya Beynəlxalq Diş Həkimi Günü hər il martın 6-da bütün dünyada qeyd olunur. Bu əlamətdar günün qeyd olunma ənənəsi ildən-ilə daha geniş yayılır. Bu tarixin seçilməsinin səbəbi isə stomatologiya sənətinin əsas atributlardan birinin məhz həmin gün ixtira olunması ilə bağlıdır.

### Əvvəllər yalnız ABŞ-da qeyd edilirdi

1790-cı ilin martın 6-da ABŞ-ın ilk prezidenti Corc Vaşinqtonun şəxsi diş həkimi Con Qrinvud tərəfindən stomatoloji bor kəşf edilib. Yeni ixtira ayaqla hərəkətə gətirilən iri bormaşın olub. Həmin stomatoloji alətin köməyi ilə Qrinvud tərəfindən Corc Vaşinqton üçün protez diş hazırlanıb. Ən maraqlısı odur ki, cihazın hərəkətə gətirilməsində Qrinvud öz anasına aid cəhrənin təkərindən istifadə edib. Elektrik bormaşın isə həmin ixtiradan bir əsr sonra - 1907-ci ildə istifadəyə verilib.

Beynəlxalq Diş Həkimi Günü milli peşə bayramı kimi əvvəlcə yalnız ABŞ-da qeyd edilirdi. Sonralar diş həkimlərini təbrik etmək ənənəsi Şimali Amerikadan digər ölkələrə də yayıldı. Həmin ölkələr sırasına ilk daxil olanlardan biri Hindistan oldu.

Azərbaycanda diş həkimlərinin ilk təşkilatı 1871-ci ildə Bakıda yaradılıb. 1919-cu ildə Bakı Dövlət Universitetində açılan tibb fakültəsində tələbələr diş xəstəliklərini öyrənməyə başlayıblar. 1930-cu ildə yaradılmış Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinin verdiyi ixtisaslara stomatologiya ixtisası da daxil edilib. Stomatologiya fakültəsi sərbəst fakültə kimi 1954-cü ildə yaradılıb. 1977-ci ildə uşaq stomatologiyası kafedrası açılıb. 2002-ci ildən Azərbaycan Tibb Universitetinin Stomatoloji Klinikası fəaliyyət göstərir.



### Diş sağlamlığımızı necə qoruyaq?

Beynəlxalq Stomatoloq Günü çərçivəsində dişlərə müntəzəm və mütəmadi qulluq barədə mühazirələr oxunur və maarifçilik işi aparılır. Həmin tədbirlər zamanı uşaq kariyesinin profilaktikasına da xüsusi diqqət ayrılır. Ağız və diş sağlamlığını qorumaq üçün altı ayda bir müntəzəm olaraq diş həkiminin müayinəsində olmalıyıq. Diş çürüməsinin qarşısını almaq üçün əsas qaydalar suda kifayət qədər flüor olması, dişləri müntəzəm olaraq fırçalamaq, diş ipindən istifadə etmək, həddindən artıq şirin və şəkərli qidalardan mümkün olduğu qədər uzaq durmaq, yeməkdən sonra dişlərinizi fırçalamaqdır. Həddindən artıq turş və şəkərli qidalar mikroorqanizmlərin təsirini artırır. Bununla yanaşı, dişləri sərt qabıqlı məhsulları məsələn, fındıq, qoz və s. sındırmaq üçün istifadə etmək olmaz. Qabıqlı qidalar dişlə parçalanmamalıdır. Bunlar diş minasının çatlamasına səbəb olur və diş minasının qoruyucu təsiri yox olur. Nəticədə bakteriyalar dişə nüfuz edir, gələcəkdə dişlə bağlı bir sıra fəsadlara gətirib çıxarır.

### Fırçanın düzgün istifadəsi vacibdir...

Dişləri effektiv şəkildə fırçalamaq üçün həkimlərin tövsiyə etdiyi sərtliyə malik diş fırçası istifadə edilməlidir. Çox məcun istifadə etmək ağızdakı təravəti artırır, beləliklə dişlər tam təmizlənmədən fırçalama prosesinin dayandırılmasına səbəb olur. Bu, effektiv təmizləmənin qarşısını alır. Fırçalama heç vaxt sağdan sola üfüqi şəkildə aparılmamalıdır. Başqa sözlə desək, diş fırçası düzgün istifadə edilmədikdə, zamanla bədənin ən sərt toxuması olan diş minasını aşındıra bilər.

***Yeganə BAYRAMOVA***

## akart və Solong Beynəlxalq Qadınlar Günündə elektron musiqi həvəskarlarını bir araya gətirir




Müasir maliyyə həlli akart və tanınmış musiqi platforması Solong birgə əməkdaşlıq çərçivəsində elektron musiqi həvəskarları üçün xüsusi tədbir təşkil edəcək. 8 Mart - Beynəlxalq Qadınlar Günündə "Monte Carlo Hall"da baş tutacaq bu tədbir Şərq motivləri ilə elektron musiqini bir araya gətirəcək.

Tədbirdə Cornelius Doctor b2b və Tushen Rai müxtəlif musiqi janrlarını birləşdirərək qonaqlara fərqli səs təcrübəsi yaşadacaqlar. Eyni zamanda, tədbir tanınmış elektron musiqi sənətçisi DJ Flamarın iştirakı ilə baş tutacaq.

Qeyd edək ki, Solong musiqi platforması 2019-cu ildən fəaliyyət göstərir və ölkədə elektron musiqinin inkişafına, alternativ konsert mədəniyyətinin formalaşmasına töhfə verir. Daha öncə də Solong-un layihələrində tərəfdaş qismində çıxış edən akart, bu əməkdaşlıq çərçivəsində elektron musiqi mədəniyyətinin inkişafına dəstək verməyi hədəfləyir.

Qeyd edək ki, akart istifadəçiləri tədbirə biletləri 20 faiz endirimlə əldə edə biləcəklər. Bununla yanaşı, akart müştərilərinə eksklüziv güzəştlərdən də yararlanmaq imkanı verəcək.

Bu unudulmaz təcrübəni qaçırmamaq üçün linkə daxil olun və akart ilə 20 faiz endirim fürsətindən yararlanın! Rəqəmsal kartınızı "akart" tətbiqindən tam ödənişsiz əldə edə bilərsiniz.

***İdman***

## Bədən Tərbiyəsi və İdman Günü münasibətilə Qəbələdə təntənəli parad keçirilib




"İdman paytaxtı" Qəbələdə 5 Mart - Bədən Tərbiyəsi və İdman Günü münasibətilə parad təşkil edilib.

AZƏRTAC xəbər verir ki, idman federasiyalarının nümayəndələri, Olimpiya, Paralimpiya çempionları, idman səfirləri, könüllülər, Milli Antidopinq Agentliyi, Azərbaycan İdman Akademiyasının tələbələri və digər rəsmi şəxslərin iştirakı ilə keçirilən parad Fövqəladə Hallar Nazirliyinin önündə başlayıb və Qəbələ regional "ASAN xidmət" mərkəzinin qarşısında başa çatıb.

Paraddan sonra Azərbaycanın Dövlət Himni səsləndirilib.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev Bədən Tərbiyəsi və İdman Gününün hər il ölkədə, o cümlədən bölgələrdə təntənəli şəkildə qeyd edildiyini vurğulayıb. O, Prezident İlham Əliyevin daim Azərbaycan idmanına, gənclərə qayğı göstərdiyini bildirib. S.Abdullayevin sözlərinə görə, bölgələrdə hər il yeni idman infrastrukturları inşa olunur. İcra başçısı Qəbələ şəhərinin sürətlə inkişaf etdiyini söyləyib.

Gənclər və idman naziri Fərid Qayıbov Qəbələnin bu gün əsl bayram ab-havasında olduğunu bildirib: "Otuz il öncə Ümummilli Lider Heydər Əliyevin idman ictimaiyyəti ilə tarixi görüşü olmuşdu. Biz, həm də bu əlamətdar hadisənin 30-cu ildönümü ilə bağlı Qəbələ şəhərinə təşrif buyurmuşuq. Bu münasibətlə hazırlanan "Dönüş Anı" sənədli filmini izlədik. Azərbaycanda idman yüksək səviyyədə inkişaf edir".

Paradın ardınca konsert proqramı təşkil edilib.

## "Azercell"-in eksklüziv 100 seriyalı nömrələri artıq satışda!




Mobil operator 100, 101 və 110 seriyalı nömrələri istifadəçilərə təqdim edir

"Azercell" 100, 101 və 110 seriyalı nömrələrin satışına start verir. Mart ayının 5-dən etibarən istifadəçilər 010 prefiksli yeni seriyalı nömrələri əldə edə bilərlər.

Yeni nömrələr öz eksklüzivliyi və fərdi yanaşması ilə seçilir. Bu yenilik istifadəçilərə fərqli və yaddaqalan telefon nömrələri seçmək imkanı yaradaraq onların müştəri təcrübəsini daha da individuallaşdırır.

100 seriyalı nömrələri "Azercell"-in rəsmi onlayn satış portalı www.azercellim.com vasitəsilə əldə etmək mümkündür. Müştərilər mövcud seçimləri araşdıra və istədikləri nömrəni asanlıqla tapa bilərlər. Yaxın zamanda digər prefiks və seriyalı nömrələr də www.azercellim.com portalına əlavə ediləcək.

Yaddaqalan nömrənlə fərqlən, 100-də 100 üstünlüklə!

Daha ətraflı məlumat üçün rəsmi "Azercell" səhifəsinə daxil olun.

## Azərbaycan Avropa Kubokunda 53 cüdoçu ilə təmsil olunacaq

Azərbaycanın yeniyetmə cüdoçuları Türkiyənin Antalya şəhərində keçiriləcək Avropa Kubokunda iştirak edəcəklər.

Cüdo Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, ölkəmiz yarışda 16 çəki dərəcəsində 53 (25 oğlan və 28 qız) idmançı ilə təmsil olunacaq.

Oğlanlardan ibarət komandaya baş məşqçi Emin İskəndərov, məşqçi Nicat Şıxəlizadə, qızlar yığmasına isə baş məşqçi Elnur İsmayılov və məşqçi İmamverdi Məmmədov rəhbərlik edəcək.

Avropa Kuboku martın 8-9-da təşkil olunacaq.





Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4857**
**Sifariş: 501**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova